www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 28 fevral 2017-ci il Çərşənbə axşamı № 45 (6659) Qiyməti 60 qəpik

**Xəbər**

**Bakı Şəhər Narkoloji Dispanserinin baş həkimi həbs olundu**

yazısı səh.2-də

## Gündəm

**Şəhidlərimizin meyitləri döyüş meydanından götürüldü -adlar**



Ermənistan, nəhayət, vasitəçilərin çağırışını eşitdi; işğalçı ordunun xain planı bəlli oldu; hərbi ekspert situasiyanı şərh edir

yazısı səh.7-də

**Azərbaycanda Türkiyə hərbi bazasının yaradılması məsələsi yenidən gündəmdə**

yazısı səh.9-da

**Sərkisyan güzəştə getməyəcəklərini deyir - onu arxayın edən nədir?**

yazısı səh.10-da

**Bir təyinata iki ölkə mediasından fərqli baxış...**

yazısı səh.4-də

**Vəzifəyə təyinatlarda kadr problemi**

yazısı səh.5-də

**Tramp mediaya savaş açdı; qalib kim olacaq?**

yazısı səh.13-də

**Göyçay sakini kəsdiyi ağacın altında qalaraq öldü**

yazısı səh.14-də

**Qəzzafinin yoxa çıxmış 700 milyardlıq xəzinəsi...**

yazısı səh.13-də

**Bakıda qadını şantaj edib pul istəyən şəxs tutuldu**

yazısı səh.14-də

**Bakıda Mikayıl Müşfiqin abidəsi niyə götürülüb...**

yazısı səh.15-də

**Novruzda 9 gün bayram olacaq**

yazısı səh.14-də

**Bu gün Od çərşənbəsidir**

yazısı səh.15-də

## 25 fevrala aparan yol, 25 fevral dərsləri

# QARABAĞDA BÖYÜK SAVAŞ: ONU LABÜD EDƏN TƏK SƏBƏB

Rusiya regiondan "barmağını" çəkməyincə satellit Ermənistan da bölgədə layiqli yerini tapmayacaq; rusiyalı ekspertlərin müharibə xəbərdarlıqları və proqnozlarında gizlədilən acı gerçək...




yazısı səh.8-də

## Azərbaycanın enerji layihələri təhdid altında

Avropa beynəlxalq enerji layihələrinin təhlükədə olmasına niyə göz yumur...

yazısı səh.12-də



**Jurnalist Zabil Müqabiloğlu 40 yaşında dünyadan köçdü**

yazısı səh.3-də



**Ərdoğan Rusiyaya səfər edəcək**

yazısı səh.2-də



**Mehriban Əliyeva iqtisadi sferada inqilabi dəyişikliklər edə bilər**

yazısı səh.5-də

YENİ MÜSAVAT
N 45 (6659) 28 fevral 2017

## Təbrik

**Anar Bağırovu 35 illik yubileyi münasibətilə iş yoldaşları ürəkdən təbrik edirlər, ona cansağlığı, bol ruzi-bərəkət və uğur arzulayırlar.**



## Ərdoğan Rusiyaya səfər edəcək

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan rusiyalı həmkarı Vladimir Putinlə görüşəcək. APA-nın "Reuters"ə istinadən verdiyi məlumata görə, görüş Ərdoğanın Rusiyaya martın 9-10-da səfəri zamanı baş tutacaq.**

Görüşdə ikitərəfli münasibətlərin inkişaf perspektivləri müzakirə olunacaq.

## Azərbaycanda investorlar üçün «VİP Xidmət»

**Azərbaycanın qiymətli kağızlar bazarında maraqlı yeniliyə start verilib. «PSG Kapital» İnvestisiya Şirkəti qiymətli kağız sahibi olmaq istəyən investorlar üçün «VİP Xidmət» adlanan kampaniyaya başlayıb.**

Şirkətdən verilən məlumata görə, kampaniya müddətində 50 min ABŞ dolları və ya 80 min manat həcmində qiymətli kağız almaq istəyən fiziki şəxslər «VİP Xidmət»dən istifadə edə bilərlər.

Qeyd edək ki, «PSG Kapital» İnvestisiya Şirkəti öz müştərilərinə bütün növ qiymətli kağızların (DQİ, Mərkəzi Bankın Notları, Korporativ İstiqrazlar, səhmlər) alğı-satqısı, anderrayter xidməti, marketmeyker xidməti, REPO əməliyyatları, Fərdi İnvestorların Portfelinin idarəedilməsi, İnvestisiya məsləhətinin verilməsi və Valyuta ticarəti kimi xidmətlər göstərir.

Şirkət «VİP Xidmət» kampaniyasına fiziki şəxslərin çoxsaylı müraciətini nəzərə alaraq başlayıb.

Kampaniyanın şərtlərinə görə, səhm və ya istiqraz almaq istəyən investorlar «PSG Kapital»ın satış mərkəzlərinə yaxınlaşmadan və vaxt itirmədən qiymətli kağızları əldə edirlər.

Eləcə də «VİP Xidmət»in istifadəçiləri qiymətli kağızların alınması üçün ödənilən rüsum və komissiya haqlarında da güzəşt əldə edirlər. Belə ki, kampaniya çərçivəsində qeyd olunan məbləğdə səhm və ya istiqraz almaq istəyən fiziki şəxslərdən tutulan investisiya şirkətinin komissiyalarına 50%-ə qədər endirim nəzərdə tutulur.

Həmçinin «VİP Xidmət» daxilində ödənişsiz, fərdi şəkildə investisiya məsləhətinin verilməsi də daxildir.

Qeyd edək ki, bu kampaniya "PSG Kapital"ın əməliyyat apardığı bütün yerli qiymətli kağızlara - səhm və istiqrazlara, o cümlədən SOCAR istiqrazlarına da aiddir.

«VİP Xidmət»dən istifadə etmək istəyən fiziki şəxslər öz şəxsiyyət vəsiqələrini və bank rekvizitlərini elektron qaydada investisiya şirkətinə göndərirlər. Şirkətin əməkdaşları investorun qeyd etdiyi ünvana yaxınlaşaraq, onunla müqavilə bağlayır və daha sonra elə seçilən ünvana da çıxarış təqdim edirlər.

Beləliklə, adi vaxt 2 dəfə satış məntəqəsinə yaxınlaşan investorlar «VİP Xidmət»dən istifadə edərək, vaxt itirmədən istədiyi ünvanda - evdən və ofisdən çıxmadan investisiya şirkəti ilə müqavilə bağlayırlar. Daha sonra qiymətli kağız alışı üçün sifariş verilərək, Bakı Fond Birjasının ticarət sisteminə investorun sifarişi yerləşdirilir.

Xatırladaq ki, "PSG Kapital" şirkəti SOCAR istiqrazlarının təkrar bazarı üzrə marketmeykerdir. "PSG Kapital" investisiya şirkəti tərəfindən aparılan «VİP Xidmət» kampaniyası aprelin 17-dək davam edəcək.

"Qaya Mətbuat Yayımı" MMC!
**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Ehsan Zahidov müxalifətçilərin həbsi ilə bağlı iddialara cavab verdi

### "Polis qanunları pozanlar arasında sosial-siyasi mənsubiyyət ayrı-seçkiliyi aparmır"

**Son günlər sosial şəbəkələrdə, o cümlədən bəzi saytlarda müxalifət fəallarının kütləvi şəkildə həbs edilməsi ilə bağlı xəbərlər yayılır. Bununla bağlı musavat.com Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəisi Ehsan Zahidova müraciət edib. Bu iddiaların doğru olub olmadığını haqda sualımıza E.Zahidov belə cavab verib:**



"Məlumat üçün bildiririk ki, İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinin tələblərini pozduqlarına görə məhkəmələr tərəfindən ölkə üzrə cari ilin yanvar ayı ərzində 655, fevralda ayında 520, ümumilikdə isə 1175 nəfər inzibati qaydada həbs olunub. Heç şübhəsiz ki, inzibati qaydada məsuliyyətə cəlb olunanlar arasında nəinki müxalifətçi, siyasətçi, jurnalist, həmçinin əhalinin müxtəlif təbəqələrindən olan insanlar da vardır. Barələrində müvafiq protokol tərtib edərkən polis əməkdaşları onların partiya mənsubiyyəti ilə, siyasi fəaliyyətləri ilə heç vaxt maraqlanmayıb və buna zərurət də yaranmayıb".

**Ehsan Zahidov deyib ki, müxalifət funksionerlərindən və onların təsiri altında olan hüquq müdafiəçilərindən fərqli olaraq, polis əməkdaşları üçün sosial, dini və siyasi mənsubiyyətindən asılı olmayaraq hüquqazidd əməllər törətmiş bütün şəxslərin hamısı Azərbaycan vətəndaşıdır və onları hansısa qruplara ayırmaq, bölücülük aparmaq daxili işlər orqanlarının fəaliyyət predmeti olmayıb:** "İki ay ərzində inzibati qaydada həbs olunan 1175 şəxsin arasından 19-nu məxsusi seçərək ayırmaq, ictimai-siyasi mənsubiyyətini qabardaraq fərqləndirmək mərəzi bəzi maraqlı şəxslərin və qüvvələrin hansı yolla olursa-olsun siyasi divident qazanmaq, mövzu ətrafında yersiz hay-küy qaldıraraq, şou düzəldərək beynəlxalq və ictimai rəyi çaşdırmaqdan, müstəqil siyasət yeridən ölkəmizin yüksək nüfuzuna kölgə salmaqla, özləri barəsində saxta demokratiya fədailəri və cəfakeşləri obrazlarını yaratmaq cəhdindən başqa bir şey deyil".

## Narkoloji Dispanserin baş həkimi həbs olundu

**Bakı Şəhər Narkoloji Dispanserində vətəndaşlardan qeydiyyatda olub-olmamaları barədə arayış verilməsi üçün pul istənilməsi barədə Bakı şəhər sakinindən 161 nömrəli "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciət Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və Səhiyyə Nazirliyi tərəfindən araşdırılıb.**

Baş Prokurorluğun mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində Bakı Şəhər Baş Səhiyyə İdarəsinin Şəhər Narkoloji Dispanserinin baş həkimi Hüseyn Həsənovun 2017-ci ilin yanvar-fevral aylarında qeyd olunan müəssisədə tibb qeydiyyatçısı işləyən Mətanət Şamçiyeva vasitəsilə narkoloji xəstəliklə əlaqədar qeydiyyatda olub-olmamaları barədə arayışların verilməsi müqabilində ayrı-ayrı şəxslərdən müxtəlif məbləğlərdə olmaqla, ümumilikdə 3190 manat məbləğində pulu rüşvət kimi tələb edib almasına şübhələr üçün əsaslar olduğundan Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanıb.

Hüseyn Həsənova Cinayət Məcəlləsinin 311.1-ci (rüşvət alma) maddəsi ilə ittiham elan olunmaqla barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib və o, Səhiyyə Nazirinin müvafiq əmri ilə tutduğu vəzifədən azad edilib.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz hallar tam və hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin tam dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.



## "Əsgərin həlak olması barədə məlumat yalandır" - Müdafiə Nazirliyi

**"Əsgər Hüseynov Murad İlqar oğlu hazırda Silahlı Qüvvələrdə hərbi hissələrdən birində xidmətdədir. Onun yayılan fotosu isə 2016-cı ilin fevral ayında Silahlı Qüvvələrin ağırlıqqaldırma üzrə yarışlar zamanı qohumları tərəfindən çəkilərək sosial şəbəkəyə yerləşdirilib".**

Bu barədə APA-ya Müdafiə Nazirliyinin mətbuat xidmətindən Azərbaycan sosial şəbəkə istifadəçilərinə və bəzi yerli elektron KİV-ə istinadən Ermənistan mətbuatında guya Azərbaycan əsgəri Murad Hüseynovun həlak olması ilə bağlı yayılan məlumatlarla əlaqədar bildirilib.

"Qoşunların qarşıdurma xəttində baş verən hadisələr barədə son günlər sosial şəbəkələrdə paylaşılan əsassız xəbərlər, "Youtube"da yayımlanan saxta video və fotolarla bağlı bildiririk ki, bu, Ermənistanın xüsusi xidmət orqanları üçün sifariş yerinə yetirən şəxslər tərəfindən məqsədyönlü şəkildə həyata keçirilir.

Müdafiə Nazirliyi rəsmi olaraq bildirir ki, bu kimi təxribat xarakterli məlumatların yayılmasında və ictimaiyyətimiz arasında çaşqınlıq cəhdinin göstərilməsində məhz Ermənistanın maraqlı olması şübhəsizdir.

Mətbuat xidməti əsgər Murad Hüseynovun videomüraciətini də təqdim edib.

## "Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həlli yoxdur" - Donald Tusk



**"Dağlıq Qarabağ münaqişəsi ilə bağlı status-kvo dayanıqlı deyil". APA-nın məlumatına görə, bu sözləri Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk Brüsseldə səfərdə olan Ermənistan prezidenti Serj Sərkisyanla görüşdən sonra keçirilən birgə mətbuat konfransında deyib. O bildirib ki, münaqişə tez bir zamanda beynəlxalq hüquqa əsasən siyasi yolla həll olunmalıdır: "Bu münaqişənin hərbi yolla həlli yoxdur. Avropa İttifaqı ATƏT-in Minsk Qrupunun vasitəçilik səylərini və təkliflərini dəstəkləməyə davam edir".**





## "Əsas məqsəd qeyri-neft sektoru məhsullarının xarici bazarlara ixrac edilməsidir"

### Prezident İlham Əliyevin Qətər səfəri başa çatdı

**Qətərdə rəsmi səfərdə olan Azərbaycan prezidenti İlham Əliyevin Əmir sarayında rəsmi qarşılanma mərasimi olub.**

APA-nın məlumatına görə, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Qətər əmiri Şeyx Təmim bin Həməd Al Tani Azərbaycan prezidenti İlham Əliyevi qarşılayıb.

Rəsmi qarşılanmadan sonra Azərbaycan prezidenti İlham Əliyev və Qətər əmiri Şeyx Təmim bin Həməd Al Tani arasında öncə təkbətək görüş, sonra isə geniş tərkibdə görüş olub.

"Əsas məqsəd qeyri-neft sektoru məhsullarının xarici bazarlara ixrac edilməsidir".

APA-nın məlumatına görə, bunu Azərbaycan prezidenti İlham Əliyev Qətər əmiri Şeyx Təmim bin Həməd Al Tani ilə geniş tərkibdə keçirdiyi görüşdə deyib.

Dövlət başçısı Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi istiqamətində aparılan islahatlardan, qeyri-neft sektorunun inkişafından danışıb.

Görüşdə son vaxtlar iki ölkə arasında müxtəlif sahələri əhatə edən əməkdaşlıq münasibətlərinin sürətlə inkişaf etdiyi bildirilib.

Azərbaycana səfərini xatırladan Şeyx Təmim bin Həməd Al Tani respublikamızın sürətlə inkişafının şahidi olduğunu diqqətə çatdıraraq bildirib ki, ölkəmizdə sabitlik və təhlükəsizlik mövcuddur: "Bu da həm iqtisadi, həm turizm sahələrində inkişafa imkan yaradır".

Qətər əmiri qarşılıqlı səfərlərin ölkələrimiz arasında əməkdaşlığın inkişafına xidmət edəcəyini vurğulayıb.

Azərbaycan prezidenti İlham Əliyev isə Qətərə əvvəlki səfərini məmnunluqla xatırlayıb və ötən müddət ərzində ölkədə böyük inkişafın şahidi olduğunu deyib.

Söhbət zamanı müxtəlif istiqamətlərdə, o cümlədən kənd təsərrüfatı, turizm, mədəniyyət, infrastruktur sahələrində əlaqələrin genişləndirilməsinin önəmi vurğulanıb, digər ölkələrdə müxtəlif sahələrdə layihələrin icrasına birgə sərmayə qoyuluşu, neft və qaz sahəsində əməkdaşlıq imkanları müzakirə olunub.

Fevralın 27-də Azərbaycan prezidenti İlham Əliyevin Qətərə rəsmi səfəri başa çatıb.

YENİ MÜSAVAT
N 45 (6659) 28 fevral 2017



# Zabil Müqabiloğlu torpağa tapşırıldı





## Tanınmış jurnalist 40 yaşında dünyadan köçdü







**Uzun müddətdir ağır xəstəlikdən əziyyət çəkən tanınmış jurnalist, gunxeber.com saytının rəhbəri Zabil Müqabiloğlu (Nəcizadə) fevralın 26-da gecə saat 23 radələrində dünyasını dəyişib.**

Qanaxma diaqnozu ilə xəstəxanaya yerləşdirilən Z.Müqabiloğlu bir neçə saat sonra koma durumuna düşüb və onu həyata qaytarmaq mümkün olmayıb.

40 yaşında dünyasını dəyişən jurnalist Zabil Müqabiloğlu fevralın 27-də torpağa tapşırılıb. Musavat.com xəbər verir ki, mərhum jurnalist Mehdiabadda, ata-anasının və 2005-ci ildə 3 yaşında ikən dünyadan köçən qızı Türkanın qəbirlərinin yanında dəfn edilib.

**Zabil Müqabiloğlu 1977-ci il noyabrın 17-də Zəngilan rayonunun Babaylı kəndində anadan olmuşdu. Jurnalistin 12 yaşlı oğlu Əli APA-ya deyib ki, atası ona sağalacağını vəd edibmiş:** "Dedi ki, mən indi yaxşılaşmışam, analizlərimi verməyə gedəcəm. Amma qaraciyəri ağrıyırdı".

**"525-ci qəzet"in baş redaktoru Rəşad Məcid də vida mərasiminə qatılanlar arasındaydı:** "Azərbaycan jurnalistikasına böyük itkidir. Tanınmış və istedadlı jurnalist Zabil Müqabiloğlu biz tərk edib. Zabil mənimlə "525-ci qəzet"də, sonradan isə "Yeni Müsavat" qəzetində çalışıb. Avropa Şurasında səfərlərdə olanda Zabil də iclasları işıqlandırmaq üçün bizimlə gedərdi. AŞ PA-nın iclaslarında iştirak edirdi. Azərbaycan dövlətçiliyinə xidmət eləyən yazılar yazırdı".

**Jurnalist Ekspert Mərkəzinin sədri Ceyhun Musaoğlu da həmkarı ilə bağlı fikirlərini bölüşdü:** "Zabil bizim hamımızın dəyərli dostumuz və qardaşımız olub. Onunla jurnalistikaya bir yerdə gəlmişik. Bu gündən sonra "Zabili qoruya bilmədik" təəssüfü ilə yaşayacağıq. Onu qorumaq üçün nə qədər səylər göstərdik, qoruya bilmədik".

**"Torpağa tapşırıldığı bu gün barəsində keçmiş zamanda danışmaq olduqca ağırdır. Zabil Müqabiloğlunu çoxdan tanıyırdım. İstedadı, bacarığı, ədəb-ərkanı ilə seçilən həmkarlarımızdan idi".**

**Bu sözləri isə Mətbuat Şurasının sədri Əflatun Amaşov tanınmış jurnalist Zabil Müqabiloğlunun vəfatı ilə bağlı facebook səhifəsində yazıb. O, Zabil Müqabiloğlunun azad insan olduğunu qeyd edib:**

"Müalicə üçün İranda olarkən telefonla söhbətləşdik. İlk dəfə səhhəti pisləşəndə xəstəxanaya baş çəkməyə də getmişdim. Xəstəliyinin bənizinə gətirdiyi solğun görkəmdə bir yaşamaq istəyi duydum. Ağrısız-acısız, sərhədləri olmayan, çərçivələnməyən, məhdudiyyətsiz yaşamaq istəyi. O, azad insan idi.

Artıq Zabil haqq dünyasındadır. Ruhunun azadlığını tapdığı yerdə. Ağrımıza, acımıza təsəllimiz də yalnız budur. Təəssüf ki, budur.

Doğmalarına, əzizlərinə, daim təəssübünü çəkdiyi, ona qayğısını əsirgəməyən həmkarlarına dərin hüznlə başsağlığı verirəm. Allah rəhmət eləsin. Məkanı cənnət olsun!"

***

Zabilin jurnalistliyi ilə yanaşı, şairliyi də vardı, ara-sıra şeir, hekayə yazardı. O, 3 ay öncə amansız xəstəlikdən müvəqqəti sağalandan sonra belə bir şeir də yazmışdı:

### Həyat

*Qaranlıqdı...*
*Gözlərim qapalımı,*
*hava qaralıb yoxsa.*
*Xəbərim yox,*
*ayın neçəsi, neçədi saat.*
*****
*Qaranlıq otağımda*
*tənha yatağımda*
*bir mənəm,*
*bir də xatirələrim.*
*Onlar da keçmişdən boylanır boyat-boyat.*
*****
*Xatirələrdən nə qədər insanlar boylanır, keçir.*
*Neçəsi tərif deyir, neçəsi sevir, neçəsi xumarlanır keçir.*
*Bu dünya özü bir keçid qapısı,*
*kimi düz keçir, kimi də mənimtək aldanıb keçir*
*Həm də heç nə olmamıştək, rahat-rahat.*
*****
*Bilirsən, niyə rahatam,*
*Nə pislik etdimsə, özümə etdim.*
*Qapadım gözlərimi, ağ dünyanı qara gördü,*
*dözmədi buna, gözümə etdim.*
*Ən gözəl sözləri meyxoş dilim acı elədi,*
*Ən böyük xəyanəti sözümə etdim*
*Bağışla, bağışla məni,*
*bu dünyaya gətirdin, sevdirdin*
*və bu qədər yaşatdın, həyat...*

20.12.2016 Pirşağı

***

**Mərhumun yas məclisi 2 mart 2017-ci ildə Maştağa-Buzovna yolunda (Məmmədyarov dairəsindən sonra təxminən 1 kilometr irəlidə) yerləşən "Görüş" mərasim evində təşkil olunacaq.**

**Allah rəhmət eləsin!**





# Zabildən qalan baməzə söhbətlər...



Samir SARI

**Onun nakam taleyi haqqında yazmaq, hətta düşünmək də çox kədərlidir. Zabil çox şən, pozitiv, baməzə adam idi, şənliklərin adamıydı. Ciddi yumoru vardı. Bu gün onun yalnız təbəssüm doğuran xatirələrini qələmə alacam, qoy ruhu şad olsun.**

***

Bir dəfə mətbəxdə oturub yemək yeyirdik. Aşpazımız Mahizər xanım vermişel və qarabaşaq yarması bişirmişdi. Zabil belə yeməkləri sevməzdi, amma ta başqa variant yox idi, sakitcə yeyirdi. Birdən başını qaldırıb aşpazımızdan soruşdu: "Mahizər bacı, siz əvvəllər internatda-filanda işləməməsiniz?"

Mahizər bacı "yox" dedi və kontr-sual verdi: "Nədi ki?"

Zabil başını yenidən boşqabına tərəf endirərək dedi: "Heeç, yetim-yesir yeməklərini yaxşı bişirirsiz, ona görə deyirəm".

***

Zabildə baməzə planlar qurmaq, iş yoldaşlarıyla zarafatlaşmaq şakəri vardı. Bir dəfə xaricdə olan baş redaktorumuzun adından (onun e.mail adresinin adında bir hərfi dəyişərək bənzərini yaratmaqla) qəzetdə getmiş yüngül bir səhvə görə Famil Cəfərliylə yazışmışdı. Özü də sırf R.Arifoğlunun yazı ritorikası və üslubunda: "Yahu, bu xəyanətmi, səhlənkarlıqmı? İzahat gözləyirəm". Famil də təfərrüatlı izahat yazmışdı. Sonradan Zabil o izahatdan sitatlar gətirir, danışırdı. Çox məzəli bir olay idi.

***

Üç-dörd il qabaq əməkdaşımız Etibar Seyidağa KİV DF-nin müsabiqəsində 1000 manat məbləğində mükafat qazanmışdı və bu münasibətlə bir hind toyuğu alıb redasiyaya gətirmişdi ki, kollektiv kəsib yesin. Hind toyuğu karton qutuda eyvandaydı. Zabil və Samir Kazımlı pul toplayıb, bazara adam göndərdilər, bir arıq beçə alaraq, hind toyuğunun qutusuna qoydular. Kəsim saatı gəlib çatdığında Etibar və kollektivin fəalları bıçağı itiləyərək, karton qutunu da götürərək həyətə düşdülər. Etibar hind toyuğunu təntənəli şəkildə qutudan çıxarmaq istəyəndə əlinə arıq beçə gəldi, bir anlıq çaşıb qaldı, sonra Zabilgilin qəhqəhəsini görəndə əsəbiləşdiyindən bıçağı yerə atıb, deyinə-deyinə otağa qayıtdı. Sonradan uşaqlar gəlib onun könlünü aldılar, "zarafat edirik" dedilər.

***

Bir dəfə Zabilin növbətçi redaktor olduğu vaxt, gecə saat iki radələrində qəzet səhifələnib plyonkaya verilirmiş, artıq beş-on dəqiqədən sonra nəşriyyata göndəriləcəkmiş. Dizaynerlərdən biri internetdə xəbər görür: "İraqda terror aktı olub". Xəbəri görən dizayner Zabil eşidə-eşidə deyir ki, bunu Rauf əmiyə deyim, tapşırıb ki, gecə təcili xəbər olsa mənə məlumat ver. Zabil anlayır ki, baş redaktor o xəbəri mütləq səhifəyə qoyduracaq, daha yarım saat gec çıxası olacaqlar. Ona görə də dizaynerə təpinir: "Otur aşağı. Deyirsən, əmin o xəbərə görə bizi əsir eləsin burda?"

***

3 il öncə qəzetimizin 8-9 əməkdaşı mayın 28-də Sumqayıt tərəflərdə dəniz sahilindəki dostumuzun restoranına getmişdik. Zabil də oğlu Əliylə gəlmişdi. Bir az həyətdə futbol, voleybol oynadıq, sonra dəniz qırağına getdik. Çimdik. Qayıdıb bir də futbol oynadıq. Axşam düşdü, şam yeməyini də burda eləmək istədik. Bir də gördük, Zabil hardansa iki aşıq tapıb gətirib. Aşıqlar bir az çalıb oxudular, Zabil qol götürüb oynadı, axırda da aşıqların cibinə pul qoyub yola saldı.

***

"Ergenekon" işində adı keçən general Vəli Küçükdən məhbəsdə müsahibə götürmək üçün Türkiyəyə gedən Zabili MHP-nin rayon təşkilatlarından birinin fəalına həvalə edirlər ki, onu müşayiət eləsin. Adam da bacardığını edir. Qayıdandan sonra Zabil danışırdı: "Getdik, nahar eləməyə, qardaş dedi ki, abi, bir hamsi yeyəkmi, dedim, yeyək. Yedik, ləzzətliydi. Axşam oldu, şam eləməliyik, qardaş yenə dedi, abi, gedək hamsi yeyək. Üzə düşdüm, yenə hamsi yedik. Ertəsi gün nahar vaxtı o, bir də "hamsi qonaqlığı" təklif edəndə dedim ki, qardaş, sən canın, icazə ver, bu gün mənim hesabıma başqa bir şey yeyək, hamsi yeyə-yeyə trabzonluya döndük".

***

Bir gün işdən sonra saat 6 radələrində Zabil və dostları növbəti xudmani ziyafətə getmək üçün redaksiyanın yerləşdiyi binanın qapısı ağzında məşvərət edirdilər. Nəsə bir çatışmazlıq vardı. Birdən qəzetimizin direktoru Ələsgər Süleymanov maşınla gəldi, düşdü, baqajdan Ukraynadan yenicə gətirdiyi bir şüşə istiotlu araq çıxarıb onlara verdi, dedi, gedin, nuş eləyin. Zabil üzünü dostlara tutub dedi: "Sizə demirdimmi, Allah kor bayquşun ruzisini yuvasında yetirər".

***

Belə bir adam idi Zabil - deyib-gülən, yeyib-içən, dosta sadiq... Heyf ki, özü demişkən, tormoz şlanqı nasaz idi. Getdi...

YENİ MÜSAVAT
N 45 (6659) 28 fevral 2017

# Bir təyinata iki ölkə mediasından fərqli baxış...

## Deputat: "Ərdoğanla savaş aparan qruplara bağlı mediada ara-sıra səslənən fikirləri Türkiyənin ayağına yazmaq yanlış olar"

**Azərbaycanda birinci vitse-prezident təyinatına qonşu ölkələrin telekanallarında da diqqət ayrıldı. Türkiyədə FOX telekanalının mənfi münasibətinə rəğmən, digər qonşu ölkə, xüsusilə də Rusiya telekanallarında Azərbaycanın idarəçiliyindəki məlum dəyişikliyə münasibət müsbət oldu.**

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan deputat Zahid Oruc bildirib ki, Türkiyə siyasi elitası, ölkəmizdə mövcud iqtidarla çox yaxşı münasibətlərə malikdir:** "Azərbaycanın atdığı addımlara, dövlət idarəetmə sisteminin daha da təkmilləşməsinə, islahatların sürətlənməsinə baxış hər zaman müsbət olub. Burada ikinci fikir yoxdur. Hazırkı Türkiyə siyasi elitası da ölkəmizdə mövcud iqtidarla çox yaxşı münasibətlərə malikdir. Burada bizim əsas nəyə can atmağımız onlara bəllidir. Qafqazlarda demokratik dövlət qurmaq, onu gəlişdirmək və xalqın istədiyi hakimiyyət sistemini bərqərar etmək, əlbəttə ki, uzun bir yoldur. Bu, o qədər də asan vəzifə deyil. Xüsusilə də müharibə reallığını nəzərə alarsaq, ölkə qarşısında bir sıra vəzifələri eyni vaxtda həll etmək çağırışları durur. Düşünürəm ki, vitse-prezident təyin olunmasına münasibətdə Türkiyə elitasında mövqelər kifayət qədər müsbətdir. O cümlədən həmin cəmiyyətin özündə də bu, belədir. Nəzərə alaq ki, Türkiyə cəmiyyəti xanımların idarəçiliyin mühüm zirvələrində olmağını yaşayıblar. Belə olan təqdirdə məsələyə münasibətdə haradasa xarici mənbələrə yaxın və ya daxildə Ərdoğanla savaş aparan qruplara bağlı mediada ara-sıra səslənən fikirlərin, bütövlükdə Türkiyənin ayağına yazılmasını da qəbul etmək yanlış olar".

**Z.Oruc bildirib ki, ABŞ-ın mövqeyini Türkiyədəki hansısa media üzərindən yayması da real görünmür:**

"Hesab edirəm ki, sona qədər araşdırsaq, bu versiyanın da əsasının olmadığını görəcəyik. Söhbət hazırkı reallıqda Azərbaycan konstitusiyasından irəli gələn məsələləri həll etməkdirsə, digər tərəfdən isə düşünürəm ki, Mehriban xanımın timsalında çevik, cəmiyyətin xüsusilə ehtiyaclı təbəqəsinin səsinə çevrilən xanım liderin, dövlət idarəçiliyində təmsil olunmağından gedir. Rusiya televiziyasına müsahibəsində Mehriban xanım çox dəqiqliklə fikirlərini, baxışını ifadə etdi. Rusiya, Türkiyə və ya digər ölkələrdən bu məsələyə baxışın müsbət olacağına inanıram. Çünki zənn edirəm ki, burada ən başlıca məsələ Azərbaycanda qurulmuş strateji modelin qorunub saxlanmasıdır. Biz bölgə dövlətlərinə münasibətdə Mehriban xanımın birinci vitse-prezidentliyi fonunda, yeni kurs və onlarla hər hansı bir qarşıdurmalar, yaxud da əlaqələrin dayandırılması vədini vermirik. Əksinə, Mehriban xanım özü də ifadə etdi ki, ölkə başçısının seçdiyi yol düzgündür və özünün fəaliyyətində də bu kimi məqamları nəzərə alacaq. Ona görə də hesab edirəm ki, bu hadisəni müsbət dəyərləndirmək lazımdır. Müxtəlif şəxslərin, Türkiyə içərisindəki hansısa qrupların kifayət qədər mürəkkəb bir vəziyyətdə, Azərbaycanla münasibətləri pisləşdirmək üçün irəli sürdükləri mövqeləri tirajlayıb iki ölkənin informasiya, siyasi məkanında onlardan nəticələr çıxarmaq, siyasi texnoloji baxımdan uyğun olmaz. Qarşıdakı dönəmdə həm təhlükəsizlik amilləri, Qarabağla savaş ehtimalları, həm də bir sıra başqa islahatlar, Mehriban xanımın təyinatının nə qədər yerində və uğurlu seçim olduğunu göstərəcək. Söhbət ondan gedir ki, reallıqda "birinci xanım" institutu bu illər ərzində məhz Mehriban xanımın timsalında ictimai həyatımızın, sosial-iqtisadi, mədəni siyasətimizin önünə çıxıb. Bu mənada, Mehriban Əliyeva xalqın üzərində mənəvi hakimiyyətini qazanıb".


Zahid Oruc

**Deputat bildirib ki, birinci vitse-prezidentlik ictimai rəydə hökm sürən rəğbətin rəsmiləşdirilməsidir:**

"Bir çoxları bu məsələyə baxdıqları bucaqdan dəyər verə bilərlər. Onlar idarəçiliyin adını fərqli qoyacaqlar, burada Mehriban xanımın, cənab prezidentin həyat yoldaşı olması amilinə işarə edəcəklər. Yaxud da "gələcəkdə xanım lider, ölkənin bütövlükdə prezidentinə çevrilə biləcək" kimi suallar ətrafında gəzişmələr edəcəklər. Hətta təhlillərini bir qədər də irəli aparıb, hakimiyyət içində parçalanma, qarşıdurmaları qabartmaq üçün yeni-yeni rənglər qatacaqlar. Bunlar hamısı başa düşüləndir. Heç kimə düşünməyi qadağan etmək olmaz. Ancaq fəal bir şəkildə bu kimi mövqe sahiblərinin bir sıra hallarda əsassız hüquqi-siyasi dəlillərini siyasi barrikadanın bir tərəfinə yığıb, onlara mübarizə ruhu vermək, konkret formada müqavimət göstərmək, həmin kəslərin ömürlərini artırmaq deməkdir. Mehriban xanım Rusiya televiziyasına müsahibəsində də qeyd etdi ki, o, açıq-konstruktiv tənqidləri qəbul etməyə, onları dəyərləndirməyə hazırdır. Hesab edirəm ki, içərisində nisbi qeyri-sabitlik olan adamların ölkənin gələcək həyatından dolayı narahatlıqları varsa, bəhs etdiyimiz müsahibəyə baxmaları yetərlidir. Bir Azərbaycan xanımının dünyada bizim ölkəmizi bu cür müsbət ləyaqətlə, böyük intellektlə təmsil etməsini yalnız alqışlamaq lazımdır. Müsahibəni mən də izlədim və mənim üçün də yeni planda Mehriban xanımın müsahibəsinə daha fərqli bir rakursda yanaşmaq çox əhəmiyyətli idi. Bu ölkənin mənafeyi üçün düşünən bütün insanlar ona qürur hissi ilə baxır".

❑ Əli RAİS

# Vitse-prezidentliyə Vasif Talıbov müəmması

## Mehman Əliyev: "Onun Ali Məclis sədri vəzifəsində qalması və paralel olaraq vitse-prezident olması mümkünsüz görünür"

**Azərbaycanda birinci vitse-prezidentin təyinatından sonra digər vitse-prezidentlərin də təyinatı maraqla gözlənilir. Novruz bayramına qədər bu təyinatların gerçəkləşəcəyi deyilir, prosesin aprelə qədər yubanabiləcəyi ilə bağlı da fikirlər var. Vitse-prezidentlərin sayı ilə bağlı deyilənlər də birmənalı deyil. Kimisi üçə qədər vitse-prezidentin olacağını, kimisi də bundan artıq, 5-6 vitse-prezidentin olacağını deyir.**

Bu məsələnin fonunda ötən həftə Azərbaycanın gündəmini qısa müddətdə zəbt edən Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbov məsələsi də müzakirə edilməkdədir. Onun 23 fevralda vitse-prezident elan olunacağı və sonradan bu xəbərin dezinformasiya olmasının arxasında dayanan müəmmalar müzakirə mövzusudur. Bu xəbərin ona yaxın mənbələr tərəfindən mətbuata qəsdən ötürüldüyü barədə də fikirlər var, bu xəbərlə ona qarşı bəzi dairələrin kampaniyası hesab edənlər də.


Vasif Talıbov

**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev "Yeni Müsavat"a açıqlamasında vitse-prezidentlərin təyinatı ilə bağlı gəzən söz-söhbətlər barədə bunları dedi: "Təyinatlar aprelə qədər uzana bilər. Novruza qədər də bu prosesin yekunlaşma ehtimalı az deyil.** Apreldə strukturların formalaşdırılması, işçilərin işə götürülməsi və digər bu istiqamətdə işlər başlaya bilər. Martda elan edə bilərlər, amma strukturların formalaşdırılması prosesi apreldə başlaya bilər. 2 və ya 3 vitse-prezident ola bilər. Müəyyən sahələr üzrə təyinatlar olacaq. İqtisadi-sosial, eləcə də maliyyə üzrə postlar yaradıla bilər. Bir də ola bilsin ki, təhlükəsizlik üzrə vitse-prezident təyinatı olsun".

**"Turan"ın rəhbəri Vasif Talıbov müəmmasına da toxundu:** "Burada iş orasındadır ki, o, Naxçıvan Ali Məclisinin sədridir. SSRİ dövründə avtomatik olaraq, o post Azərbaycan parlamenti sədrinin müavini idi. Buna görə də onun vitse-prezident olacağına inanmıram. Digər tərəfdən də, bu icraedici, o isə qanunverici hakimiyyətdir. Onun o vəzifədə qalması və paralel olaraq vitse-prezident olması mümkünsüz görünür. Vitse-prezident olması üçün Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklər olunmalı idi. Bu yaxınlarda o dəyişikliklər oldu, lakin o maddə ora salınmadı. Bu isə o deməkdir ki, Vasif Talıbovun vitse-prezident olmaq şansı çox azdır. Onun yeri hakimiyyət üçün çox mühüm olan Naxçıvandadır. Lazımi vəzifələri orada icra edir. Mətbuatın bu məsələdə elə də təsiri yoxdur. Bu baxımdan, onun adının mətbuatda hallanması adının üstündən xətt çəkilməsi anlamına gəlməməlidir. Məncə, bu məsələ gündəmdə də deyildi. Sadəcə, kimsə bunu ortaya atdı. Bu xəbərlərin onun işinə istənilən istiqamətdən təsiri ola bilməz. Bizdə prezidentin hakimiyyəti var və onun bu cür xəbərlərlə hakimiyyətə təzyiq etdiyini deyənlər yanılırlar. Belə çıxır ki, dövlət başçısına təzyiq edir? Bu da mümkünsüz görünür. Çünki o, sadiq bir məmurdur. Fəaliyyəti ilə bunu sübut edib, üstəlik, yaxşı icraçıdır".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 45 (6659) 28 fevral 2017

# Mehriban Əliyeva iqtisadi sferada inqilabi dəyişikliklər edə bilər

## Fikrət Yusifov: "Bu, tək sosial sahədə deyil, bütün səviyyədə islahatların daha sürətlə aparılacağına xəbərdarlıqdır"

**Azərbaycanın 1-ci vitse-prezidenti Mehriban Əliyeva "Rossiya 1" telekanalına müsahibə verib. Müsahibə hər bazar günü efirə çıxan "Vesti nedeli" proqramında göstərilib.**



**Proqramın aparıcısı jurnalist Dmitri Kiselyov qeyd edib ki, Mehriban Əliyevanın Azərbaycanın 1-ci vitse-prezidenti təyin edilməsi haqqında qərarı məntiqi qəbul ediblər. D.Kiselyov deyib:** "Mehriban Əliyeva onsuz da praktiki olaraq ölkənin bütün ictimai və siyasi həyatında iştirak edir, idarəetmə fəaliyyətində zəngin təcrübəyə malikdir. Cəmiyyətdə onun nüfuzu şəksizdir. Mehriban Əliyeva son üç çağırış Azərbaycan parlamentinin deputatıdır, Heydər Əliyev Fonduna müvəffəqiyyətlə başçılıq edir, onun rəhbərliyi ilə 2012-ci ildə Bakıda "Eurovision" müsabiqəsi parlaq surətdə keçirilib, inişil isə tarixdə ilk dəfə Avropa Oyunları təşkil edilib. Mehriban Əliyeva Şərq ölkələrində siyasətin yalnız kişilərin işi olması barədə stereotipləri uğurla təkzib edir".

**1-ci vitse-prezident Mehriban Əliyeva proqrama müsahibəsində bildirib ki, yeni vəzifədə prezidentin, ən başlıcası isə inamı, ümidləri olan insanların etimadını doğruldacaq. Mehriban Əliyeva deyib:** "Məni Azərbaycanın birinci vitse-prezidenti vəzifəsinə təyin etmək qərarı Azərbaycan prezidentinin şəxsi təşəbbüsü olub. Əlbəttə, uzun illər ərzində təkcə prezidentin xanımı deyil, həm də onun silahdaşı olmağım da yəqin ki, öz rolunu oynayıb".

**Azərbaycanın 1-ci vitse-prezidenti müxbirin "Siz dərhal razılaşdınızmı" sualına cavabında deyib:** "Biz müzakirələr aparır, götür-qoy edirdik. Mənim əsas tərəddüdüm üzərimə qoyulan bu məsuliyyətin öhdəsindən nə dərəcədə gələ biləcəyim müstəvisində idi. Mən birmənalı şəkildə bilirəm və əminəm ki, dövlətin maraqları ilə həyat yoldaşımın mənə tövsiyələri və dəyəcəkləri tamamilə üst-üstə düşəcək. Deməli, yanımda onun simasında birmənalı şəkildə mənə kömək edəcək, hər hansı çətinliyim olarsa, məni dəstəkləyəcək, düzgün yol göstərəcək bir şəxsiyyət var".

Ölkənin 1-ci vitse-prezidenti qeyd edib ki, bu vəzifədə ölkədə sosial problemlərin həlli ilə məşğul olacaq.

**Mehriban xanım Əliyevanın bu açıqlaması onu deməyə əsas verirmi ki, ölkədə sosial-iqtisadi islahatlara rəhbərliyi məhz birinci vitse-prezident həyata keçirəcək?**

**Sabiq maliyyə naziri, iqtisadçı professor Fikrət Yusifov "Yeni Müsavat"a bildirdi ki, Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondu artıq illərlədir ki, Azərbaycanın qeyri-institusional inkişaf vasitəsinə çevrilib. Fond öz layihələri ilə səhiyyə, elm və təhsil sahələrində dövlət siyasətini tamamlayır, informasiya kommunikasiyaları və ətraf mühitin mühafizəsi sahələrində ölkə üçün pilot layihələr işləyib hazırlayır, bir sözlə, ölkənin sosial həyatına aid mühüm məsələlərin həllində öz sözünü deyir. Birinci xanımın Azərbaycan paytaxtının memarlıq simasının dəyişməsində rolunu da diqqətdən kənarda qoymaq olmaz. Bakını həqiqətən dəbdə olan müasir şəhərə çevirən bir sıra layihələr Mehriban Əliyevanın şəxsi iştirakı sayəsində mümkün olub. Odur ki, Mehriban xanım Əliyevanın ölkənin 1-ci vitse-prezidenti kimi yüksək vəzifəyə təyinatı və müsahibəsində dediyi həmin fikirlər bundan sonra ölkədə sosial islahatların daha da genişləncəyindən xəbər verir:** "Hesab edirəm ki, bu, tək sosial sahədə deyil, bütün səviyyədən olan islahatların daha sürətlə aparılacağına bir xəbərdarlıqdır. Kimin bu məsələyə necə münasibət sərgiləməsindən asılı olmayaraq, bu təyinat ən doğru seçimdir. Azərbaycanda keçirilən beynəlxalq tədbirlərdə onun sərgilədiyi təşkilatçılıq nümunəsi ən yüksək qiymətə layiqdir. Bu gün Azərbaycanın beynəlxalq aləmdə daha yaxından tanınması istiqamətində Mehriban xanımın gördüyü işlər əvəzsizdir. Onun təşkilatçılıq bacarığı və talantı hər kəsin gözü qarşısındadır. Bu talant sonradan yaranmır, o kiməsə verilir. Elə bu səbəbdən də inanırıq ki, ölkəmizdə aparılan sosial-iqtisadi islahatlar Mehriban xanımın yaxından köməyi ilə daha dinamik bir müstəviyə transformasiya olunacaqdır.

Fikirlərimi Rusiya Federasiyası Federal Məclisinin rəsmi mətbu orqanı olan "Parlamentskaya qazeta"nın 2015-ci il 22 sentyabr tarixli nömrəsində və nüfuzlu "Rossiyskaya Federatsiya seqodnya" jurnalının 18-ci nömrəsində tanınmış jurnalist, rəhbərlik etdiyim "Ekonomiks" Beynəlxalq İqtisadi Araşdırmalar Birliyinin Rusiya nümayəndəliyinin rəhbəri tanınmış jurnalist-politoloq Aleksandr Karavayevin "Mehriban Əliyeva qəlbinin siyasəti" başlıqlı məqaləsində əks olunmuş bu sözlərlə tamamlayıram ki, Azərbaycanın sistemli sosial-iqtisadi inkişafında Mehriban Əliyevanın rolunu danmaq və ya diqqətdən kənarda qoymaq olmaz".

Bəzi ekspertlər hesab edir ki, 1-ci vitse-prezident vəzifəsinin siyasi yükü də kifayət qədər böyükdür. Mehriban Əliyevanın müsahibədə sosial problemlərin həlli ilə məşğul olacağını deməklə yanaşı "siyasət-bu yalnız kişi işi deyil" söyləməsi də bundan irəli gəlir.

Bir sıra ekspertlər isə 1-ci vitse-prezident vəzifəsinə Mehriban Əliyevanın təyin edilməsinin iqtisadi sferada inqilabı dəyişikliklərlə müşayiət olunacağını proqnozlaşdırırlar.

Yayılan xəbərlərə görə, M.Əliyevanın bu posta təyin olunması iqtisadi blokda olan bəzi nazirləri və brokerləri, inhisarçıları həyəcanlandırıb. Hakimiyyətin yeni idarəçilik strategiyasında monopoliyaya yer yoxdur və prezident qəti şəkildə inhisarçılıq siyasətinə nifrət edir. Dövlət başçısının iqtisadi böhrana qarşı imzaladığı fərmanlar və sonuncu gömrüklə bağlı sərəncam da məhz inhisarın qarşısını almağa hesablanıb. Bu situasiyada M.Əliyevanın yeni vəzifəsi məhz monopoliyaya qarşı daha güclü şəkildə səfərbər olmağa imkan yaradır. M.Əliyeva gömrükdə olan monopoliya halları, idxal məhsulları ilə bağlı yaranan problemləri aradan qaldırmaq iqtidarındadır. Bu baxımdan, 1-ci vitse-prezidentlik institutu prezidentin bu və ya digər göstərişlərinin həyata keçirilməsinə nəzarəti gücləndirə, bürokratik əngəlləri aradan qaldıra və proseslərin qat-qat sürətlənməsinə səbəb ola bilər.

❑ **Etibar SEYİDAĞA**



# Vəzifəyə təyinatlarda kadr problemi

## "Kifayət qədər savadlı kadrlarımız var, sadəcə, onlar önə çəkilməlidir"

**Azərbaycanda kadr dəyişikliklərinin sürətli aparılmamasının səbəblərindən biri kimi bir çox sahələr üzrə yüksək səviyyəli kadrların olmaması göstərilir. Bu fikirdə olanlar iqtidarın lazımi kadr bazasının formalaşmadığına diqqəti çəkir. Bir çox sahələr üzrə savadlı kadr çatışmazlığı hətta iki il öncə ən yüksək səviyyədə də etiraf edilmişdi. Bütün bunlara rəğmən, hakimiyyət daxilində xeyli vaxtdır bir islahat, kadr yenilənməsi prosesi gedir. Bu proses sürətli olmasa da getməkdə davam edir. Xaricdə təhsil almış, bir neçə əcnəbi dil bilən, nanotexnologiyaların ən son yeniliklərini mənimsəmiş kadrların önə çəkilməsi prezident İlham Əliyevin son zamanlar çıxışlarında da əsas tezislərdən birinə çevrilib. Ola bilsin ki, bu, tam açıq şəkildə ifadə olunmur, amma yarıtmaz məmurların ən sərt tənqidi əslində onların əvəzlənəcəyi anlamına gəlir.**

Ekspertlər hesab edir ki, bu prosesin uğurlu nəticələnməsi üçün xaricdə təhsil almış, bir sıra beynəlxalq təşkilatlarda uğurla fəaliyyət göstərən gənclərdən ibarət "kadr bankı" yaradılmalıdır. Xüsusilə diplomatiya, iqtisadiyyat, menecment, təhsil və digər sahələrdə ehtiyat kadrlardan istifadə edilməlidir.

Rusiyada və bir çox ölkələrdə iqtidarın "kadr bankı" sayılan xüsusi qurumlar var ki, ayrı-ayrı sahələr üzrə savadlı mütəxəssislər oraya cəlb edilir və dövlət, hökumət vəzifələrinə təyinatlarda həmin kadrlardan istifadə olunur. Azərbaycanda hələ ki bu yoxdur. Bəs nə üçün yaradılmır və buna ehtiyac varmı? Azərbaycanda belə bir "kadr bankı" formalaşdırmaq üçün kifayət qədər savadlı kadrlar varmı?

Siyasi ekspert Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında bildirib ki, dövlətin idarə olunmasında kadr bankı önəmli amildir. Hətta bir sıra ölkələrdə partiyaların öz kadr bankları olur ki, hakimiyyətə gələcəyi halda hansı vəzifələrə kimlər təyin olunacaq. Məsələn, Donald Tramp prezident seçildikdən sonra komandasını təkbaşına formalaşdırmadı, bunda ona Respublikaçılar Partiyası və bir sıra beyin mərkəzləri kömək etdi: "Tramp dövlət katibi vəzifəsinə bir neçə namizədi nəzərdən keçirdi, sonra Reks Tillerson üzərində qərar verdi. Halbuki Tramp kimi Tillerson da heç vaxt dövlət vəzifəsində işləməyib, illər uzunu böyük neft şirkətinin rəhbəri olub. Ancaq onun elə bu təcrübəsi və ayrı-ayrı dövlət liderləri ilə təmasları Tillersonun dövlət katibi təyinatında önəmli rol oynadı. Rusiya prezident Vladimir Putin nə qədər avtoritar üsul-idarəyə üstünlük versə də, o da güclü aparat formalaşdırıb. Boris Yeltsinin prezidentliyi dövründə qısa müddətdə baş nazir olan Sergey Kiriyenko bu gün Prezident Administrasiyasında kadrların seçilməsinə məsuldur. Məhz onun hesabatlarını əlində rəhbər tutan Putin bir həftə ərzində 5-6 bölgənin qubernatorunu dəyişib və yaşlıların yerinə uğurlu karyeraları olan gəncləri irəli sürüb.

Azərbaycanda da Prezident Administrasiyasında kadrların seçimi ilə bağlı qrupun olduğunu istisna etmirəm. Ancaq həmin qrupun seçiminin heç də hər zaman uğurlu olduğunu düşünmürəm. Əlbəttə, ASAN kimi yaxşı nümunə var ki, onun rəhbəri gənc və enerjilidir, yeni təşəbbüslərlə çıxış edir. Ancaq məsələn, rayonlara təyin olunan icra hakimlərindən şikayət çoxdur. Son zamanlar yaşlı korrupsioner bir neçə nazirin gənc və savadlı kadrlarla əvəzlənməsinin şahidi oluruq. Fikrimcə, Mehriban Əliyevanın birinci vitse-prezident təyin olunmasıyla bu proses sürətlənə bilər. Bəlkə də birinci vitse-prezidentin rəhbərliyi ilə kadr bankının yaradılması mümkündür".

Ekspertin sözlərinə görə, Azərbaycanda kifayət qədər savadlı kadrlar var. Sadəcə olaraq, onlar önə çəkilməli, bu şəxslərin bacarıqlarından, imkanlarından səmərəli istifadə olunmalıdır. Bunun üçün də kadr bankının yaradılması çox zəruridir.

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 45 (6659) 28 fevral 2017



# Paşazadələrin şərikinin məhkəməsində bank borcu qalmaqalı

## Şeyxin oğlu 693 min, deputat Cavanşir Paşazadənin kürəkəni 173 min krediti nə üçün alıbmış?

**Paşazadələrin şəriki olmuş Müğdət Həşimovun cinayət işi üzrə növbəti məhkəmə prosesi başa çatmaq üzrədir.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Novruz Kərimovun sədrliyi ilə keçirilən prosesdə M.Həşimovun vəkili Elçin Sadıqov çıxış edib.

Vəkil bildirib ki, Paşazadələrin şəriki olan Həşimov ittihamda qeyd edildiyi kimi mənimsəmə əməlini törətməyib.

O, müvəkkilinin günahsız olduğunu söyləyib: "Həşimov heç bir cinayət əməli törətməyib. Dövlət ittihamçısı Həşimova bəraət istəmək əvəzinə ona 11 cəza tələb etdi. Həşimov öz qulluq mövqeyindən istifadə etməklə ona etibar edilmiş özgə əmlakını talamaqda təqsirləndirilir.

Belə ki, "Medi-Sina" MMC-nin direktoru Ramazan Zeynalovun qeyri-yaşayış sahəsi banka girov qoyaraq 700 min pul götürülüb. Həşimov həmin krediti ödəyəcəyini vəd edib. Bundan əlavə isə Həşimov öz fərdi yaşayış evinin sənədlərini düzəltmək üçün Ramazan Zeynalovdan 70 min borc alıb. Sonra da həmin məbləği ödəməyib.

Prokurorluqda cinayət işinin açılması ilə bağlı qərardan görünür ki, Həşimov Ramazan Zeynalovdan 693 min manat alıb. Məqsəd isə klinikanın fəaliyyətinin təmin edilməsi olub. Cinayət işinin başlaması ilə bağlı qərardan da görünür ki, Həşimov əlavə olaraq cibindən 40 min manat da pul qoyaraq klinikanın fəaliyyətini təmin edib. Aydın görünür ki, Həşimovun məqsədi bu məbləği nəinki talamaq olub, hətta işin görülməsi üçün 40 min də əlavə pul xərcləyib. İttihamda yazılan 70 min manatlıq borcu da Həşimov inkar etmir və borc kimi aldığını etiraf edir. Ancaq klinikanın fəaliyyəti dayandırıldığı üçün pulu ödəyə bilməyib".

**Vəkil E.Sadıqov bildirib ki, M.Həşimov deputat Cavanşir Paşazadə və Ramazan Zeynalov tərəfindən hədələnib:** "Cavanşir Paşazadə Həşimovu məcbur edib ki, banka 2018-ci ilə qədər öhdəliyi olan pulu təcili ödəsin. Əks halda, həbs etdirəcək. Bu məbləği də deyilən müddətdə ödəmək mümkün olmayıb".

Şəriklər Allahşükür Paşazadənin həyat yoldaşı və oğlu, Cavanşir Paşazadənin qızı və kürəkəni olub.

Vəkil çıxışında qeyd edib ki, bankdan MMC-yə ayrılan 693 min kredit təsisçilər Paşazadə Pakizə Qənbər qızı, Əliyev Atiq İlyas oğlu, Əliyeva Kamilə Cavanşir qızı və Paşazadə Məhəmməd Allahşükür oğlunun adına 173 min manat olmaqla verilib. Yəni MMC-nin hesabından pulu Həşimov götürməyib. Ona görə də MMC Həşimova qarşı heç bir halda zərərçəkmiş tərəf və mülki iddiaçı kimi tanına bilməz".

**E.Sadıqov əlavə edib ki, Həşimovla klinikanın şərikləri arasında imzalanan birgə fəaliyyət haqqında müqavilədə göstərilir ki, Həşimov yalnız bankdan götürülən krediti klinikanın gəlirlərindən ödəməli olub:** "Həşimov klinikadan çıxarılana qədər bu öhdəliyini yerinə yetirib. Ramazan Zeynalov tərəfindən qaldırılmış iddiadan da görünür ki, müqaviləni də birtərəfli şəkildə o pozub".

Vəkil Müğdət Həşimovun səhhətinin ağır olmasını da nəzərə alaraq məhkəmədən onun barəsində bəraət hökmünün çıxarılmasını istəyib.

Xatırladaq ki, dövlət ittihamçısı Müğdət Həşimovun 11 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Növbəti məhkəmə prosesi martın 3-nə təyin edilib.

Qeyd edək ki, M.Həşimov 2015-ci ildə Cinayət Məcəlləsinin 179.3.2-ci (mənimsəmə) maddəsi ilə təqsirli bilinərək həbs olunub. Sonradan onun barəsində 178.3.2 (dələduzluq) və 213.1 (vergidən yayınma) maddələrlə də ittiham irəli sürülüb.

Tərəflər arasında şərikliyin şərtinə görə Bank "VTB"dən 700 min manat götürülüb. Həmin pulun banka qaytarılması isə 2018-ci ilə qədər M.Həşimovun öhdəliyində olub.

M.Həşimov klinikadan qazandığı pulla həmin borcu ödəməli imiş. Bankın pulu ödənilib bitdikdən sonra əldə olunan qazanc Cavanşir Paşazadə ilə M.Həşimov arasında bölünməli imiş.

M.Həşimov deputat C.Paşazadənin himayəsində olan "Aygün-C" MMC-nin təsisçiləri ilə 2012-ci ilin 6 dekabrında rəsmi qaydada "Birgə fəaliyyət haqda" müqavilə bağlayıb. Müqavilənin şərtlərinə görə onunla iş birliyində Allahşükür Paşazadənin həyat yoldaşı və oğlu, Cavanşir Paşazadənin qızı və kürəkəni olub.

❑ İlkin MURADOV

# Ayaz Mütəllibovla AXC hakimiyyətinin barışmayan ulduzu...

## Qabil Hüseynli: "Mütəllibov ona görə qəzəblidir ki..."

**Azərbaycanın ilk prezidenti Ayaz Mütəllibovla AXC hakimiyyətinin əzəli-əbədi davası səngimir.**

Hər il fevral-may ayları aralığında eks-prezidentlə Əbülfəz Elçibəy iqtidarının təmsilçiləri arasındakı narazılıq bir az da dərinləşir, qarşılıqlı ittihamlar havada uçuşur.

Buna səbəb Mütəllibovun dövründə-1992-ci ildə Xocalı faciəsinin törədilməsi, mart və may aylarında onun iki dəfə cəbhəçilər tərəfindən prezident kürsüsündən uzaqlaşdırılmasıdır. Əksəriyyət 25 il öncə baş verənlərin nəticəsində yaranan düşmənçiliyin bu günə qədər gəlib çıxdığını düşünür. Bundan əlavə, ideologiyalar fərqinin də burada əsas rol oynadığını deyənlər var. Yəni Ayaz Mütəllibov və tərəfdarlarının kommunist, rusmeylli olmaları, cəbhəçilərin isə əks qütbdə dayanmaları 25 illik narazılıqda önə çəkilir.

**90-cı illərdən siyasi proseslərin içərisində aktiv iştirak edən sabiq dövlət müşaviri Qabil Hüseynli narazılığın səngiməməsinə səbəb olan amilləri sadaladı:** "Bunun ideologiyalarla bağlı olduğunu düşünmürəm, çünki o, kommunist deyil. Ayaz Mütəllibov Rusiyaya rəğbətini gizlətmir. Açıq şəkildə bunu bəyan edir. Hətta bilə-bilə ki, Rusiya Ermənistana kömək edir, ermənilərin tərəfini tutur, yenə də düşmən ölkəni açıq surətdə müdafiə edir. Azərbaycanın isə Türkiyə ilə yaxın münasibətlərini qəbul etmir, bunu tənqid edir. Azərbaycan Kommunist Partiyasının I katibi idi, sonra da prezident oldu. Prezident olan kəs isə o dövrdə kommunist ideologiyasının daşıyıcısı olmalı idi. Amma onda kommunist ideologiyasına aid heç nə görmürəm. Hər tənqidi şəxs niyyətə, şəxsi imicə və hakimiyyət hərisliyinə söykənir. Xocalı soyqırımından yaxasını tamamilə kənara çəkir. Halbuki Xocalıya o zaman lazımi yardımlar göstərilməli idi. Deyir ki, yardımları guya göndərib, amma AXC fəalları onu başqa yerə yönəldiblər. Buna da münasibətim fərqlidir və onun dediklərinə inanmıram. Çünki həmin dövrdə Xocalı faciəsi bağlı verilən məlumatlar və Ayaz Mütəllibovun hərəkətləri gerçəklikləri əks etdirmirdi. Onun 20 Yanvar hadisələrində də tutduğu mövqe tamamilə fərqlidir. Onunla bağlı ən azından Xocalı faciəsi və 20 Yanvar hadisələri ilə bağlı cinayət işi qaldırılıb. Düzdür, bu cinayət işi dondurulub. Amma işə xitam verilməyib. Təəccüb edirəm ki, Ayaz Mütəllibov eks-prezident kimi dövlətin ona verdiyi imtiyazlardan istifadə edir. Amma danışarkən tarixi həqiqətləri öz maraqlarına uyğun şəkildə yozmağa üstünlük verir. Halbuki baş verən hadisələrə görə ən azından siyasi məsuliyyət daşıyır. Zənnimcə, indiki dövrdə Ayaz Mütəllibov sakit dayansa, siyasi proseslərə qarışmasa, hətta siyasi proseslərdə məsləhətverici pozada dayanmasa, daha yaxşı olar. Çünki hər danışığında ciddi xətalara yol verir. Bu da qarşı tərəfin, hətta əhalinin böyük hissəsinin narazılığına səbəb olur. Çünki Ayaz Mütəllibov dövrünü görmüşük, onun bütün nüanslarını bilirik. Lazım gələrsə, həmin hadisələr barədə daha geniş açıqlamalar vermək mümkündür. Sadəcə, milli birlik naminə münasibətləri və emosiyaları gərginləşdirəcək açıqlamalar vermək fikrində deyilik. Cəbhə hakimiyyəti ilə narazılığının səngiməməsinə səbəb iki dəfə hakimiyyətdən uzaqlaşdırılması ilə bağlıdır. Ona görə belə qəzəblidir. Öz rəqiblərini hakimiyyətdən uzaqlaşdırıldığına görə tənqid edir".



❑ Cavanşir ABBASLI

# Müsəlmanlara nifrət edən Le Pen Fransa prezidentliyi yolunda

## Qərbdə radikal millətçi təmayüllərin önə çıxması dünyaya nə vəd edir?

**Fransada Milli Cəbhənin lideri, ifrat sağçı Marine Le Pen aprel və may aylarında keçiriləcək prezident seçkisində iştirak edəcək. Le Pen İslam əleyhinə çıxışları ilə, radikal millətçiliyi ilə seçilir.**

Qeyd edək ki, keçən il ABŞ-da prezident seçkiləri kampaniyası öncəsi milyarder Donald Tramp seçkilərə milli və dini ayrı-seçkilik yayan çıxışlar etməklə qatılmışdı. İlk vaxtlar çoxları belə bir şəxsin prezident seçilməsini mümkünsüz hesab edirdilər. Ancaq bu proqnozların hamısı heç oldu və Tramp dünyanın superdövlətinə rəhbər seçildi. İndi Fransada millətçi, islam əleyhinə radikal çıxışları ilə məşhur siyasətçi prezidentlik uğrunda mübarizə aparır. Fransada da "Tramp hadisəsi" yaşana bilərmi? Ümumiyyətlə, son zamanlar Qərbdə radikal millətçi təmayüllərin önə çıxması, hakimiyyətə yiyələnməsi prosesi gedir. Bunun dünyaya təsiri necə ola bilər?

**Beynəlxalq məsələlər üzrə ekspert Elşən Mustafayev "Yeni Müsavat"a bildirdi ki, Fransada Milli Cəbhənin lideri Marine Le Penin yazda olacaq prezident seçkilərində qələbə qazanacağı inandırıcı deyil. Doğrudur, son 7-8 ildə Avropada millətçi partiyaların aktivliyi, seçkilərdə gözlənilməz nəticələr göstərməsi təcrübəsi var. Məsələn, İsveçdə, Böyük Britaniyada, İspaniyada və digər ölkələrdə millətçi partiyalar ilk dəfə olaraq az sayla da olsa parlamentdə fraksiya ilə təmsil olunmaq hüququ qazanıblar, bələdiyyə seçkilərində müəyyən səslər əldə ediblər. Buna da əsas səbəb Avropa ölkələrinin miqrasiya siyasətində olan bir sıra boşluqlar, sosial problemlər oldu və millətçilər də əhalinin aztəminatlı hissəsindən, miqrantlara olan narazı münasibətlərindən istifadə edərək seçicilərinin saylarını artırdılar. Halbuki 10-15 il öncə heç kim bunu təsəvvür belə etmirdi:** "Bunlara baxmayaraq, millətçilər bunu uğur kimi qarşılasalar da Avropada hələ heç bir millətçi partiya hakimiyyətə gələ bilməyib, hətta ikinci partiya belə ola bilmir. Bunun da səbəbi Avropada seçicilərin çoxunun millətçiliyə olan neqativ münasibətidir. Eyni zamanda Avropa ölkələrinə son 40-50 il ərzində miqrasiya etmiş seçicilərin də sayı kifayət qədərdir. Söhbət tək müsəlmanlardan getmir, əslən Çindən, Şərqi Avropadan olan seçicilər də millətçilərin əleyhinə səs verənlərdir. Avropada hər hansı millətçi partiya sədrinin prezident seçkilərində uğur qazanmasının şahidi olmamışıq. Marine Le Pen də prezident seçkilərində maksimum üçüncü nəticə göstərə bilər ki, bu da ciddi təhlükə yaratmayacaq".


Elşən Mustafayev

**Ekspert qeyd etdi ki, 2015-ci ilin sonlarında Fransada keçirilən bələdiyyə seçkilərində Le Penin partiyası heç bir bölgədə qələbə çala bilməmişdi. Qarşıdakı isə prezident seçkiləridir. Bu seçkilərdə həmişə olduğu kimi Fransanın ənənəvi partiyaları olan mühafizəkar Xalq Hərəkatı İttifaqı və Sosialistlər Partiyası aralarında rəqabət olacaq. Əgər Le Pen və ya onun kimi digər bir ifrat millətçi namizəd bu iki partiyadan birinin namizədi olsaydı, o zaman məsələ daha ciddi olardı:** "ABŞ-da da Tramp hər hansı millətçi partiyanın namizədi yox, ölkədə iki əsas partiyadan biri olan Respublikaçıların namizədi idi. Onun seçilməyinə şans yaradan əsas amil də bu idi. Digər partiyada olsaydı, Trampın şəxsi keyfiyyətləri, seçki kampaniyasında verdiyi vədlər ona kömək etməyəcəkdi".

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 45 (6659) 28 fevral 2017





# Şəhidlərimizin meyitləri döyüş meydanından götürüldü - adlar

## Ermənistan, nəhayət, vasitəçilərin çağırışını eşitdi; işğalçı ordunun xain planı bəlli oldu; hərbi ekspert situasiyanı şərh edir

**Fevralın 24-dən 25-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bütün cəbhə boyu törətdiyi irimiqyaslı təxribatların qarşısını alarkən şəhid olmuş hərbi qulluqçularımızın nəşləri beynəlxalq vasitəçilərin iştirakı ilə döyüş meydanından təxliyə edilib. Bu barədə Azərbaycanın Müdafiə Nazirliyi məlumat yayıb.**

Nazirlik açıqlamasında meyitlərin bazar günü götürülməsi barədə razılaşmanı pozan düşmənin əməllərinə də aydınlıq gətirib: "Fevralın 24-dən 25-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bütün cəbhə boyu törətdiyi irimiqyaslı təxribatların qarşısını alarkən şəhid olmuş hərbi qulluqçularımız Abdullayev Aqşin İsmayıl oğlu, Nəzərov Şahlar Yaşar oğlu, Haşımlı Tural Əbdül oğlu, Qədimov Zülfü Rəhim oğlu və Cəfərov Zakir Nazim oğlunun nəşlərinin döyüş meydanından çıxarılması məqsədilə ATƏT və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) nümayəndələrinin vasitəçiliyi ilə fevralın 26-da saat 12.00-da müvafiq tədbirlərin həyata keçirilməsi planlaşdırılırdı. Lakin meyitlərin çıxarılması proseduru başlayanda Ermənistan beynəlxalq vasitəçilərin iştirakı ilə əvvəlcədən əldə edilmiş razılığın şərtlərini pozaraq əməliyyatın keçirilməsinə mane olmaq məqsədilə bilərəkdən yeni qəbuledilməz tələblər irəli sürüb".

Qeyd edək ki, Ermənistan hakimiyyəti işğalçı ordunun Azərbaycana məxsus mövqelərə hücumunu, təxribat-diversiya hərəkətlərini və hətta həlak olmuş hərbçilərimizin meyitlərinə qarşı qeyri-insani davranışını ört-basdır etmək üçün saxta məlumatlar yayırdı. Düşmən tərəf iddia edirdi ki, Azərbaycan ATƏT-in Minsk Qrupunun çağırışına əməl edərək həlak olan hərbçilərin neytral ərazidən çıxarılması barədə razılaşmanı "pozub".

Ancaq Bakının bəyan etdiyi kimi, Azərbaycan tərəfi məhz düşmənin təxribatları nəticəsində fevralın 26-da öz hərbi qulluqçularının meyitlərini neytral ərazidən çıxara bilməmişdi.

BAKU.WS sözügedən qəbuledilməz səbəblərin nə olduğunu aydınlaşdırmağa çalışıb. Erməni mətbuatının yaydığı məlumata görə, neytral zonada yerləşən 5 Azərbaycan hərbçisinin meyitlərinin çıxarılması üçün Azərbaycan tərəfinin separatçı Dağlıq Qarabağ tərəfi ilə danışıqlar aparması tələb edilib. Bu məlumatın nə dərəcədə həqiqətə uyğun olduğunu aydınlaşdırmaq üçün Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi Vaqif Dərgahlıya müraciət etdik. Qəzetimizə açıqlamasında xidmət rəisi bildirdi ki, həlak olan hərbçilərimizin meyitləri ermənilərin əlində deyildi ki, onlar da cəsədləri bizə qaytarsınlar. "Həmin ərazi Silahlı Qüvvələrimizin nəzarəti altındadır. Beynəlxalq vasitəçilərin orada olması isə əlavə qan tökülməməsi üçün atılan addımdır".

Şəhid olmuş 5 hərbi qulluqçudan biri Ağdam rayonundandır. Bu haqda modern.az-a Ağdam rayon icra başçısının köməkçisi Eldəniz Abdullayev məlumat verib. E.Abdullayev deyib ki, şəhid 16 iyun 1988-ci il təvəllüdlü Qədimov Zülfü Rəhim oğludur. O, müddətdən artıq hərbi xidmətdə olub. Ağdam rayonunun Mərzili kənd sakinidir. Məcburi köçkün kimi Beyləqan şəhərində məskunlaşıblar. Qurum rəsmisi eyni zamanda bildirib ki, hazırda Ağdamda vəziyyət stabildir, hər kəs öz təsərrüfatında çalışır, bütün məktəblər işləyir. Digər şəhidimiz Nəzərov Şahlar Yaşar oğlu isə 25.04.1990-cı il tarixdə Yardımlı rayonun Peştəsər kəndində anadan olub. Üçüncü şəhid Həşimli Tural Əbdül oğlu Ordubad rayonunun Dırnıs kəndindəndir.

"İrəvanın və Xankəndinin hərəkətlərinə siyasi qiymət verməyə ehtiyac yoxdur. Çünki onlar öz hakimiyyətini istənilən yolla qoruyub saxlamaq üçün "ağıllı strategiyaları" barədə bu gün hətta evdar qadınlar və məktəblilər də bilir. Məni isə hərbçi insan kimi, bu il fevralın 25-nə keçən gecə cəbhədə baş vermiş toqquşmaların soyuqqanlı təhlili daha çox narahat edir. Çox az adam bilir. Amma Ermənistan rəhbərliyi tərəfindən hərbi dairələr qarşısında cəbhədə heç olmasa hər hansı bir lokal uğur qazanmaq barədə tapşırıq qoyulub. Ermənistandan xüsusi təyinatlı bölmələrin döyüş əməliyyatları zonasına atılması və qoşunların təmas xəttində saysız-hesabsız və ara-dı-arası kəsilmədən diversiya hərəkətlərinə cəhdlər buna sübutdur". Bunu milli.az-a açıqlamasında ehtiyatda olan general-mayor Aleksandr Vasyak deyib.



AQŞİN ABDULLAYEV

***

**Bu arada Ermənistanın keçmiş müdafiə naziri, hazırda keçmiş xarici işlər naziri Vardan Oskanyan və "İrs" partiyasının lideri Raffi Ovanisyanla birlikdə blok yaradıb parlament seçkilərinə hazırlaşan Seyran Ohanyanın açıqlaması da maraq doğurub. Xocalı qatili olan Ohanyan bütün siyasi partiyaları Qarabağa dair ictimai müzakirələrə çağırıb (virtualaz.org). "Aravot" qəzeti Ohanyanın çıxışından aşağıdakı sitatları dərc edib:** "Erməni və Azərbaycan xalqları yanaşı yaşayıblar və bundan sonra da yaşayacaqlar, onlar sülh istəyirlər, lakin bizim regionda sülh və tolerantlıq məsələsini həll etmək üçün Azərbaycanla Ermənistan arasında balansı təmin etmək lazımdır. Eyni zamanda iki xalqı xalq diplomatiyasına təşviq etmək, qarşılıqlı etimad mühiti formalaşdırmaq vacibdir".

**Keçmiş müdafiə nazirinin sözlərinə görə, bu etimadın olmaması danışıqlar prosesini pozur, aprel müharibəsi də buna şahiddir.** "Münaqişənin nizamlanmasının nəticəsi olaraq qaliblər və məğlublar olmamalıdır, yaxud birtərəfli qərarlar verilməməlidir. Biz ancaq belə həll yolu ilə uzunmüddətli sülhə nail ola bilərik" - Ohanyan deyib. Seyran Ohanyan məhz aprel müharibəsindən sonra Ermənistanda başlayan proseslərin nəticəsi olaraq keçmiş səngər yoldaşının komandasını tərk edib və hazırda özünü Sərkisyana qarşı əsas müxalif qüvvə hesab edir.

Müxaliflərinin "sülh" təkliflərinin qarşılığında S.Sərkisyan Qarabağ cəbhəsində gərginliyi artırmaqda davam edir. Bundan əvvəl Levon Ter-Petrosyan da prezidenti Qarabağ razılaşmasına getməyə çağırmışdı.

❑ E.PAŞASOY

# Müxalifət cəbhədəki gərginliyin səbəbkarını göstərdi

## Düşərgə nümayəndələri vəziyyətin gərginləşməsini Rusiya faktoru ilə əlaqələndirir...



**Fevralın 24-dən başlayaraq, Ermənistan ordusu Tovuz rayonundan başlamış, Tərtərə qədər çox böyük bir ərazidə atəşkəsi intensiv şəkildə pozur. Təmas xəttində baş verən hadisələrlə bağlı ölkə müxalifətinin fikirlərini aldıq.**

**Ümid Partiyasının sədri İqbal Ağazadə** "Yeni Müsavat"a bildirib ki, böyük müharibənin başlayacağını düşünmür: "Düşünmürəm ki, böyük müharibə və yaxud Ermənistan-Azərbaycan konfliktinin indiki status-kvosu dəyişsin. Təəssüf ki, qlobal güclərin regiondakı marağı və təsirləri olan dövlətlərin istəkləri bu gün bu şəkildədir. Ona görə də nə olmasından, atəşkəsin nə qədər pozulmasından asılı olmayaraq, status-kvoda dəyişikliyin olmayacağını düşünürəm".

**ADP sədri Sərdar Cəlaloğlu isə hesab edir ki, baş verənlər Rusiyanın Azərbaycana qarşı hərbi təzyiqidir:** "Hər hansı bir irəliləyişin olacağını düşünmürəm. Bu, Azərbaycanda baş verən hakimiyyət məsələləri ilə bağlıdır və bunu Rusiyanın Azərbaycana qarşı hərbi təzyiqi kimi dəyərləndirirəm. Yəni baş verənlər Mehriban xanımın birinci vitse-prezidentliyə gətirilməsinə bir reaksiyadır. Ona görə də düşünürəm ki, heç bir irəliləyiş olmayacaq. Aprel savaşı ilə bu hadisələr eyni deyil. Bir şeyə diqqət edin ki, Xocalı soyqırımı günü biz ermənilərə hücum etmək əvəzinə, onların bizə qarşı hücuma keçmələrinə, beynəlxalq ictimaiyyətin diqqətində bir daha özlərini ədalətsiz duruma salmalarına nə ehtiyac var idi? Bu, onu göstərir ki, baş verənlər ermənilərin öz iradəsi ilə olmayan hadisələrdir. Bu ilin aprel ayında da cəbhədə vəziyyətin ötən il olduğu kimi, gərginləşəcəyinə inanmıram. Çünki indi Rusiya tərəfindən Azərbaycan və Ermənistana, tam olaraq nəzarət olunur. Hadisələr isə yalnız Rusiyanın maraqlarına uyğun olaraq baş verir. Bu hadisələr nə ermənilərin, nə də azərbaycanlıların xeyrinədir".

**VİP sədri Əli Əliyev də bildirdi ki, cəbhədə vəziyyətin gərginləşməsində Rusiya faktorunun təsiri var:** "Müharibənin yenidən alovlanmasını ölkənin daxilində gedən siyasi proseslərlə bağlayıram. İlk növbədə hesab edirəm ki, bu, birinci vitse-prezidentin təyinatı ilə bağlıdır. Faktiki olaraq siyasi varisin göstərilməsi, hesab edirəm ki, şimal qonşumuzu çox narahat edib. Hamı bilir ki, Ermənistan xüsusilə də hərbi müstəvidə Azərbaycana qarşı əzələ nümayişinə cürət etməz. Baş verənlər açıq şəkildə göstərir ki, bu, erməni siyasi çevrələrinin kənardan ruhlandırılması ilə həyata keçirilib. Bundan əlavə, ölkə başçısı Münhen sammitində bölgə ilə bağlı regional paneldə Moskvanı çox ciddi şəkildə tənqid edən, Estoniya prezidenti, Ukraynanın keçmiş baş naziri Yatsenyuk və Gürcüstanın prinsipial mövqe sərgiləyən baş naziri ilə bir sırada əyləşib, mövqe nümayiş etdirib. Bu mövqe fərqli olsa da, hər halda, hesab edirəm ki, onlarla bir sırada əyləşmək artıq Moskvaya mesaj kimi qəbul oluna bilərdi. Bunların davamında isə Cənub Qaz Dəhlizi layihəsinin Bakı toplantısı da məsələyə təsir etdi. Moskva hər bir faktora etiraz edir. Hesab edirəm ki, buna görə də məhz erməni silahlı birləşmələrinin Azərbaycanla təmas xəttində fəallaşma müşahidə olunur. Burada cəmiyyətin bütün seqmentlərinin və o cümlədən də müxalifətin mövqeyi bir olmalıdır. Hakimiyyətin vəzifəsi cəmiyyətin bütün kəsimlərini bir araya gətirməkdir. Artıq böyük dövlət tərəfindən Azərbaycana qarşı başqasının əli ilə həyata keçirilən təcavüzün qarşısını almaqda vahid milli platformanın formalaşdırılması üçün hərəkətə keçmək vaxtıdır. Azərbaycanın islahatlar yoluna çıxması, torpaqlarını azad etməsi üçün milli barışığa, ölkədaxili anlaşmaya ehtiyac var".

**AĞ Partiyanın sədri Tural Abbaslı cəbhədəki itkilərin onları da narahat etdiyini dedi:** "Lakin bir məsələ var ki, torpaq uğrunda ölən varsa, vətəndir. Unutmamalıyıq ki, ərazisinin 20 faizi işğalda olan dövlətin vətəndaşlarıyıq. Tarixdə çox nadir hallarda döyüşlə itirilən torpaqlar, danışıqlarla geri qaytarılıb. Biz istənilən halda torpaqlarımızı döyüşlə qaytarmalı olduğumuzu yaddaşımızda saxlamalıyıq. Həm müxalifət, həm də hakimiyyət belə bir vəziyyətdə ordunun yanında olmalıdır. Əhaliyə, xalqa eyni mesajlar ünvanlanmalı və qətiyyən Qarabağ üzərindən hakimiyyət oyunu oynanılmamalıdır. Partiya olaraq Müdafiə Nazirliyinin addımlarını dəstəkləyirik və buna yuxarıda qeyd etdiyim səbəblərdən dolayı, məcburuq. Döyüş başladılsa, siyasət bitməlidir. Düşünürəm ki, bu döyüşlər uzunmüddətli olacaq. Çünki nə Azərbaycan, nə də Ermənistan hakimiyyəti həlledici döyüşün başlamasını istəmir. Sadəcə olaraq, düşünürəm ki, hər iki tərəfdə yaşanan siyasi hadisələr cəbhədəki vəziyyətə rəvac verir".

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 45 (6659) 28 fevral 2017



# Bəs ayaqyolunu kim düzəldəcək

Zamin HACI
zaminhaci@gmail.com

**Yaponiyanın Azərbaycandakı səfiri Tsuquo Tadaşi yoldaşı mart ayında geri çağırıblar. Pis mənada yox, sadəcə, vaxtı çatıbdır. Məncə, bundan ən çox kədərlənən Beyləqan və başqa rayonlarımızda tualetə ehtiyacı olan zəhmətkeşlərdir. Axı Beyləqanda məhz Tadaşi müəllimin köməyi ilə məktəbin ayaqyolusu tikilmişdi. Bəs indən belə uşaqlar hara gedəcəklər? Çətindir. Dözülməz hallar da yarana bilər.**

Sözgəlişi, bu tualetə ayaqyolu adını qoyan azərbaycanlını tapıb, heykəlini düzəltsək, azdır. Gör necə gözəl termin qayırıbdır! Ayaq yolu! Yəni başqa yollar da var, ayaqla gediləni budur.

Misal üçün, daimi oxucularımızdan hörmətli Vasif Həsənovun məktubu elə bu cür yollardan biri haqdadır: "Keçən dəfələrdə bir yazınızda yol barədə yazmışdınız. Mən də bu mövzuda fikirlərimi çatdırmaq istəyirəm. Ölkəmizdə yollar 3 əsas təsirlə dağıdılır: hava şəraiti, yəni qar, yağış, şaxta və sairə; yerdə baş verən tektonik hadisələr - zəlzələ, vəlvələ, sürüşmə və sairə; bir də hökumətimiz tərəfindən aparılan tikinti-quraşdırma işləri. Bizim kosmosa, başqa planetlərə peyk, raket-filan göndərməyimizə heç bir ehtiyac yoxdur. Məsələn, Zabrat qəsəbəsində hərəkət edən sürücü özünü trofi-reyd yarışının (yolsuz ərazidə ralli - Z.H.) pilotu sayaq hiss edir. Yollar o dərəcə kələ-kötürdür ki, avtomobil lunoxod olub Ayın kraterlərindəki kimi hoppanır. Bəzi təmirdən təzə çıxan yollarda isə azca sonra M87 qalaktikasının mərkəzindəki qara dəliyə bənzər çalalar peyda olur. Ora düşsən zaman-məkan daxilində yerdəyişmə mümkündür. Keçmişə, gələcəyə səfərlər edərsən. Şişirtmə eləmirəm. Həqiqətən yolun bəzi hissələri fayton yollarını, feodalizm dövrünü xatırladır. Maşın yox, öküz arabası sürmək üçündür. Hökumətə bu mistik-fantastik təəssüratlara görə minnətdarlığımızı bildiririk".

Sonra da qədrini bilmirsiniz hökumətin. Daha nə etsinlər sizdən ötrü? Mən özüm ilk fürsətdə Zabrata gedib orta əsrlərə səyahət fikrindəyəm. Kim nə bilir, bəlkə bizi o köhnə filmdəki kimi, orda xan qoydular? Burda bələdiyyə üzvü olmasaq belə, qədimlərdə yaxşı hörmət qazanarıq.

İqtisadi inkişafımız da bir tərəfdən yağlaya-yağlaya gedir. Dünən mən alış-veriş saytlarından birinə baxdım. (Ağlınıza gəlməsin ki, nəsə satmaq istəyirdim, sadəcə, reklam kimi hər addımda gözümüzə soxulan bir saytdır). Orda elektronika bölümündə bir zəhmətkeşimiz köhnə həvəskar fotoaparatlardan birini satışa qoymuşdu. Sizcə, o, bu aparatı neçəyə satmaq istəyirdi? İnanmazsınız: 2 manata! Mən o elandakı ümidsizliyi, çarəsizliyi hələ də unuda bilmirəm. İnsan gör hansı imkansız vəziyyətə gətirilib... Lap tutaq ki, bunu satdın, həmin 2 manatla axı hazırkı vəziyyətdə nə almaq olar? 4 çörək, yoxsa 1 kilo şəkər tozu? Ya da 15 yumurta? *(Öz aramızdır, xeyli şey düşürmüş. Sözümü geri götürürəm. İqtisadi inkişafımızı görməyənlər ermənidir! Urra! Çalışın müasir parklarda soğan əkin).* Xaçmazda isə oğrular bir evə girib ordan çaydan və 15 stəkan oğurlamışdılar.

Alver demişkən, çoxdan beynimdə fırlanan bir məsələni yazmaq istəyirəm. Son vaxtlar Azərbaycandan mühacirət artıb. Düzdür, bunu siyasi repressiya ilə bağlayırlar, ancaq bu repressiya əvvəl yox idimi? Var idi. Bəs niyə indi camaat daha çox qaçır? Məncə, səbəb bizim vətənə daha çox qarnımızla bağlı olmağımızdır. Dolanışıq babat idi, neft pulu var idi, dözüb otururduq. İndi pul yoxdur, atıb gedirik. Məsələ bu cür bəsitdir. Yoxsa nə siyasət, nə geopolitika? Bizimki kəlləpaçalıq, badamburalıqdır.

İndi söz əlaqədar təşkilatlarındır - yeyib doyun, nəhayət! Az qala unutmuşdum, Yaponiya hökumətindən də xahiş edirik təzə səfiri də ayaqyolu düzəldən kadrlardan seçib göndərsinlər, ora-buranı batırmayaq.

# 25 fevrala aparan yol, 25 fevral dərsləri




# Qarabağda böyük savaş: onu labüd edən tək səbəb

## Rusiya regiondan "barmağını" çəkməyincə satellit Ermənistan da bölgədə layiqli yerini tapmayacaq; rusiyalı ekspertlərin müharibə xəbərdarlıqları və proqnozlarında gizlədilən acı gerçək...

**Xocalı soyqırımının ildönümü ərəfəsində cəbhədə baş verən son insident, bütövlükdə düşmən tərəfinin axır vaxtlar artan təxribatları Qarabağ münaqişəsinin həllində hərbi amili yenidən diqqət mərkəzinə gətirib. Bu hadisə Azərbaycanın öz hərbi qüdrətini ilbəil artırmasının nə dərəcədə doğru və vacib olduğunu bir daha və qabarıq şəkildə ortaya qoyur.**

Nə olur-olsun, biz heç nəyə baxmadan bu yöndə döyüş qabiliyyəti və potensialımızı artırmalı, işğalçı ölkənin hərbi paritetə nail olmaq arzusunu gözündə qoymalıyıq. Hər nə qədər Rusiya Ermənistana paritet naminə (əslində isə öz maraqları naminə) silahlar versə də, Azərbaycanın iqtisadi-maliyyə potensialı imkan yaradır ki, təcavüzkar tərəf bizimlə ayaqlaşa bilməsin, silahlanma yarışında tab gətirməyəcək iqtisadiyyatı daha dərin böhrana girsin.

Təmas xəttindəki 25 fevral insidentini birinci dərsi budur. İkinci ibrətamiz məqam odur ki, Azərbaycan dost-müttəfiq, strateji tərəfdaş ölkələrlə, ilk növbədə də qardaş Türkiyə, Pakistan, İsraillə hərbi və hərbi-texniki əlaqələri vaxt itirmədən ən yüksək səviyyəyə qaldırmağa nail olmalıdır. Elə bir səviyyəyə ki, Ermənistan və onun əsas havadarı Rusiya tam əminlik hasil eləsin ki, hərbi qarşıdurmada işğalçının heç bir uğur şansı olmayacaq.

Danışıq masası arxasında düşməni konstruktivliyə vadar etməyin iki yolundan biri budur. İkinci yol - əlbəttə ki, preventiv hərbi zərbələr, lokal əməliyyatlardır. Nə qədər ki, işğalçı tərəf sülhə meylli görünmür, Azərbaycan bir əlində "sülh göyərçini", digərində silah tutub öz sözünü deməli, güclə təhdid variantından imtina etməməlidir.

Yəni biz sülh tərəfdarı olduğumuzu dünyaya nümayiş etdirməklə yanaşı, yeri gələndə davakar ritorika sərgiləməli, ədalətli sülhün tək alternativinin Ermənistan üçün dağıdıcı müharibə olduğunu daim qarşı tərəfə və beynəlxalq birliyə anlatmalıyıq.

*****

Rusiyalı tanınmış ekspertlərin son insidentlə bağlı rəyləri də bu xüsusda maraqlıdır. Bu rəylər münaqişənin həllində hərbi amilin önə keçdiyi qənaətini yaradır. Məsələn, tanınmış politoloq, daxili və xarici siyasət, müdafiə və təhlükəsizlik məsələləri üzrə ekspert Qriqori Trofimçuka görə, Qarabağda müharibə hələ də regionu hədələyir. Bu barədə o, təmas xəttində vəziyyətin kəskinləşməsini və ATƏT-in Ermənistana və Azərbaycana ağır texnikanı əvvəlki yerlərinə qaytarmaq çağırışını şərh edərkən deyib.

**Onun fikrincə, gələcəkdə təəssüf ki, vəziyyətin yalnız kəskinləşməsini və tədrici müharibəyə keçməsini gözləmək lazım gələcək:** "Başqa variant yoxdur, çünki bu vəziyyətin nizama salınması üçün münaqişənin üç tərəfinə düz üç şans buraxılmışdı. Birincisi Azərbaycan, Ermənistan və Rusiya prezidentləri arasında 10 dəfədən çox yüksək səviyyədə keçirilən görüşlər idi. İkincisi artıq vaxt baxımından qısa - 4 günlük aprel müharibəsindən sonrakı dövr idi. Və üçüncüsü, daha qısa - Vaşinqtonda prezident "yerdəyişməsi" zamanı idi. Bilmirəm, belə hadisələrdə tale tərəflərə dördüncü, əlavə şansı buraxırmı - o mənada ki, prinsip etibarilə artıq onların uzun və ya dəyirmi masalar arxasında bir-birilərinə demək üçün sözləri qalmır".

**Politoloqun sözlərinə görə, cari fevral kəskinləşməsi ona görə baş verib ki, 2016-cı ilin aprelindən sonra yüksək səviyyəli heç bir görüşün qərarları yerinə yetirilməyib.** "Təbii, kəskinləşməyə Qarabağda, faktiki olaraq, aprel barışığının gedişatında keçirilən "referendum" da təsir etdi - hansı ki, dünyaya Azərbaycan köklərindən tam qopmaq, hətta toponimika mənasında qopmaq cəhdini bir daha və açıq şəkildə nümayiş etdirdi. Xeyrə və sülhə çağırışlar, bunlar - çox gözəldir, amma bu, daha işləmir və hətta əksinə, birbaşa müharibəyə işləyir. Və əgər heç kim, heç olmasa bu bənd üzrə məsuliyyəti öz üzərinə götürmək istəmirsə, onda ləngidici son baryerlər də aradan qalxır", - deyə ekspert qeyd edib.

"Moskva həm erməniləri, həm də azərbaycanlıları təcavüzkar adlandırmağa ehtiyatlanır. Təhlükə ondadır ki, Dağlıq Qarabağ müharibəsinin hansısa mərhələsində qarşıdurmanın Donbasdakı cari formaları qəbul edilə bilər. Hər halda, Ermənistan indi, Azərbaycan kimi, heç bir güzəştə getməyəcək - nəyə ki, bəlkə də 5 il əvvəl hazır idi" - sonda politoloq əlavə edib.

**Digər rusiyalı politoloq və hərbi analitik Aleksandr Xramçixin is "Niyə məhz cəbhədə vəziyyət məhz indi kəskinləşib" sualına belə cavab verib:** "Niyə məhz indi yox? Tərəflərin Qarabağla bağlı mövqeləri ziddiyyətli və barışmaz olaraq qalır. Müharibə istənilən an - sabah, 10 il sonra başlaya bilər. Dağlıq Qarabağ konfliktinin dinc yolla həlli praktik olaraq, mümkün deyil. Ya bəlkə münaqişə tərəflərinin birində hansısa ağlagəlməz olaylar baş verməlidir ki, nəsə olsun".

Yada salaq ki, A.Xramçixin ötən il özünün yazdığı təhlili məqaləsində erməni ordusunun birləşmələri və onların dislokasiyasından bəhs eləmişdi. Başqa bir materialda isə o, Azərbaycan ordusu qarşısında duran vəzifələri, əsas da yeni müharibədə Qarabağın azad olunması vəzifəsini analiz etmişdi.

*****

Rusiyalı siyasi və hərbi təhlilçilərin yuxarıdakı rəy-proqnozları ilə razılaşmaq da olar, razılaşmamaq da. Ancaq ciddiyə almamaq mümkünsüz. Ən azı o səbəbə ki, onlar Kremlin Qarabağ ixtilafından dolayı regionda izlədiyi köklü maraqları çox yaxşı bilirlər. Bu xüsusda konkret olaraq, Xramçixinin "müharibə qaçılmazdır", "Ermənistan heç vaxt güzəştə getməyəcək" fikrini müəyyən mənada qəbul etməmək də olar. Niyə?

Ona görə ki, ələhəzrət reallıq başqa şey də deyir. Bu da odur ki, Rusiya Ermənistanın arxasında durmasa, onu hərtərəfli himayə eləməsə, kəsəsi, regiondan "barmağını" çəksə, İrəvan Azərbaycan qarşısında bir həftə belə duruş gətirməz və dərhal sülhə gələr, nəhayət ki, bölgədə layiq olduğu yeri və statusu tapar, öz təbii qlafına qayıdar. Deməli, müharibə də, böyük toqquşma da qaçılmaz olmaz. Rusiyalı ekspertlərin müharibə xəbərdarlıqları və proqnozlarında gizlənən və ya gizlədilən tək acı gerçək də elə budur.

**Siyasət şöbəsi**



# Azərbaycanda Türkiyə hərbi bazasının yaradılması məsələsi yenidən gündəmdə

**İşğalçı Ermənistanın Azərbaycana qarşı növbəti təxribatlarına qardaş Türkiyədən etirazların gəlməsi qürurvericidir. Digər ölkələr, həmçinin ATƏT-in Minsk Qrupunun həmsədrləri balanslı mövqedən çıxış edərək təcavüzkarla təcavüzə məruz qalan arasında bərabərlik işarəsi qoyduqları halda, rəsmi Ankara işğalçının davranışlarını birmənalı olaraq qınayıb.**

## İşğalçı ölkə Ankara-Bakı hərbi müttəfiqliyindən təşvişə düşüb; **politoloq:** "Rusiya Ermənistanda hərbi bazalarını yerləşdirə bilirsə, niyə Türkiyə ilə Azərbaycan eyni işi görə bilməz?"

Bu arada Ermənistan mətbuatı yenidən Türkiyə faktorunu qabardaraq şivən qoparmağa başlayıb. Aprel döyüşlərində ciddi itkilərə məruz qalan düşmən Azərbaycan tərəfdə türk ordusunun döyüşdüyünü, hətta "Bozqurdlar"ın əməliyyatda iştirak etdiyini iddia etməyə başlamışdı. Bu dəfə də ermənilər Türkiyənin Azərbaycanda hərbi baza qurmaq istəyindən, həmçinin Naxçıvanda Türkiyə hərbçilərinin olmasından bəhs etməyə başlayıblar.

Yeri gəlmişkən, Türkiyə ordusunda da Azərbaycan sevgisi var. Türkiyə Silahlı Qüvvələrinin xüsusi təyinatlı əsgərləri Xocalı şəhidlərinin ruhunu bir dəqiqəlik sükutla yad edib. Strateq.az xəbər verir ki, əsgərlər, "İnşallah, Cənabi-Allah bir gün onların intiqamını almağı bizlərə nəsib edər!" -deyib dua ediblər. Bu kimi hallar ermənilərin yuxusunu qaçırır.

"Qarabağda aprel müharibəsindən sonra Azərbaycan öz ordusunu daha da gücləndirib. Lakin bununla yanaşı, ötən il bağlanan müqavilə ilə Azərbaycanda türk hərbi bazalarının yaradılması həyata keçirilir. Hansı ki, Bakı və Ankaranın planlarında bir sıra məsələlərlə yanaşı, Ermənistanı küncə sıxışdırmaq da var". Publika.az xəbər verir ki, bu barədə I Qarabağ müharibəsində azərbaycanlılara qarşı vuruşmuş erməni general-mayor Levon Stepanyan deyib. L.Stepanyan Türkiyənin Azərbaycanı tam şəkildə dəstəklədiyini və bunun Ermənistana qorxulu gələcək vəd etdiyini deyib. Erməni general-mayor Türkiyə-Azərbaycan ittifaqına qarşı Rusiya-Ermənistan ittifaqını önə sürür və qeyd edir ki, Ermənistan yalnız bu cür xilas ola bilər. "Ermənistanın xilası və təhlükəsizliyi Rusiya ilə yaradılmış birgə hərbi birləşmədir", - deyə o bildirib.

Ermənistan başdan-ayağa Rusiyanın təsiri altına düşməsinə, ölkədə Rusiya hərbi bazasının olmasına, iki ölkənin birgə hərbi birləşmələrinin yaradılmasına baxmayaraq, işğalçı ölkədə qabaqdangəlmişlik edib Azərbaycan-Türkiyə hərbi birliyinin İrəvana təhlükə törətdiyi iddiaları ilə çıxış edirlər. Əslində bununla Ermənistan bir az da çox Rusiyanın qucağına sığınmaq, həm də hay-küy salıb Türkiyə-Azərbaycan hərbi yaxınlaşmasına mane olmağa çalışır. Ancaq düşmənin son təxribatları bir daha sübut etdi ki, işğalçı ölkə "arxalı köpək qurd basar" misalının ruhuna uyğun olaraq davranır və himayədarına arxayın olub Azərbaycana qarşı təcavüzkar əməllərini davam etdirir.

Belə olan təqdirdə Azərbaycanın da real situasiyadan çıxış edərək Türkiyə ilə analoji birləşmələr yaratması, ərazisində qardaş ölkənin hərbi bazalarının qurulmasına razılıq verməsi tam məntiqli görünür. Düzdür, Azərbaycan qanunvericiliyi ölkəmizdə xarici dövlətin hərbi bazasının yaradılmasını mümkün saymır. Eyni zamanda Azərbaycan Qoşulmayanlar Hərəkatının üzvü olduğu üçün bu kimi qarşısında baryerlər var. Üstəlik, Türkiyənin NATO ölkəsi olması da hərbi əməkdaşlıq məsələlərində çox irəli getməyə imkan vermir. Lakin ərazisi 25 ildir işğalda olan Azərbaycan qardaş ölkə ilə hərbi əməkdaşlığının yeni mərhələsinə qədəm qoyarsa, bu, onu böyük təhlükələrdən sığortalaya bilər.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında Ankaranın mövqeyini təqdir etdi:** "Türkiyə Ermənistanın cəbhə bölgəsindəki təxribatlarına seyrçi qalmamalıdır və qalmır da, Ankaradan ard-arda açıqlamalar səslənir. İndi başlıca vəzifə Türkiyənin Naxçıvanda hərbi bazasını rəsmiləşdirməsidir. Əgər Qars müqaviləsinə görə Türkiyə Naxçıvanın təhlükəsizliyinə görə cavabdehdirsə, bunu vaxt uzatmadan real həyatda əks etdirmək lazımdır. Azərbaycan müstəqil dövlətdir və Bakı Türkiyə ilə bu məsələdə razılaşsa heç bir dövlət bu prosesə mane ola bilməz. Ermənistanın və onun havadarı Kremlin etirazları da yersiz və məntiqsiz olacaq. Bakının həm Moskvaya, həm də İrəvana ünvanlayacağı məntiqi sual belə olacaq: Rusiya Ermənistanda hərbi bazalarını yerləşdirə bilirsə və bu dövlətin təhlükəsizliyini təminatı altına alırsa, niyə Türkiyə ilə Azərbaycan eyni işi görə bilməz? Buna nə Kremlin, nə də İrəvanın məntiqi cavabı ola bilər. Ona görə bu işi çox da uzatmadan yoluna qoymaq lazımdır".

**E.Şahinoğlu qeyd etdi ki, Azərbaycan ordusu Dağlıq Qarabağ istiqamətində uğur qazanarsa, Ermənistan hakimiyyəti bizə Naxçıvan istiqamətində problemlər və təxribatlar yarada bilər:** "Türkiyə-Azərbaycan hərbi birliyinin rəsmiləşdirilməsi işğalçı Ermənistan ətrafındakı halqanın daralmasına səbəb olacaq. Azərbaycan ordusu Ermənistan ərazisinə hücum etmir, özünə aid Dağlıq Qarabağı və ətraf rayonları işğalçılardan azad etmək istəyir. Buna heç Rusiya da qarışa bilmir. Çünki Rusiya Ermənistanın təhlükəsizliyinin təminatçısıdır, Dağlıq Qarabağın yox. Eyni saziş Azərbaycanla Türkiyə arasında imzalansa, bu, Türkiyənin Dağlıq Qarabağ üzərindəki təhlükəsizliyinə də təminatçı anlamına gələcək. Bundan sonra Ankaranın hansı addımlar atacağı indidən bəlli olmasa da, o da aydındır ki, Ermənistan qarşısında Azərbaycan-Türkiyə hərbi ittifaqını görəcək. Məni bəzən bu fikirlərimə görə tənqid edərək deyirlər ki, Türkiyə Azərbaycanda hərbi baza yaratsa, Ermənistan Rusiyadan asılı olduğu kimi Azərbaycan da Türkiyədən asılı vəziyyətə düşəcək".

**Politoloq bu xüsusda digər bir məqama da diqqət yönəltdi:** "Mənim fikirlərimə qarşı səsləndirilən ikinci arqument bundan ibarətdir ki, Gülən şəbəkəsi 30 il ərzində Türkiyə ordusunda möhkəmləndi və çevrilişə cəhd etdilər. Kim təminat verə bilər ki, eyni fəaliyyət Azərbaycan ərazisində baş verməsin? Bu suallarda müəyyən məntiq var. Sadəcə, bizim əsas diqqətimiz işğal altındakı rayonların azad edilməsinə yönəlib, bu bizim milli ideyamızdır və əgər bu milli ideyanın həyata keçirilməsində qardaş ölkə bizə təmənnasız kömək edəcəksə, bundan istifadə etmək lazımdır, sonrası nə olacaq - bunu məqsədimizə çatdıqdan sonra düşünmək lazım gələcək. Ona qalsa, Amerikanın Yaponiya və bir sıra Avropa ölkəsində hərbi bazası var. Bu o demək deyil ki, Yaponiya, Polşa və ya Baltik ölkələri Vaşinqtondan asılıdırlar. Sadəcə, Vaşinqton Polşa və Baltik ölkələrində hərbi bazalarını ona görə yerləşdirib ki, Rusiya Gürcüstan və Ukraynada etdiklərini buralarda etməyi ağlının ucundan belə keçirməsin".

**"Hərbi Doktrinaya əsasən, Azərbaycanın qoşulduğu beynəlxalq sazişlərdə nəzərdə tutulmuş hallar istisna olmaqla, ölkəmizin ərazisində xarici hərbi bazaların yerləşdirilməsinə yol verilmir". Bu fikirlər isə politoloq Şahin Cəfərliyə məxsusdur. Bununla belə, ekspert dedi ki, hərbi-siyasi vəziyyətdə köklü dəyişiklik baş verən hallarda Azərbaycan öz ərazisində xarici hərbi bazaların yerləşdirilməsinə və ya başqa formada xarici hərbi iştiraka müvəqqəti icazə vermək hüququnu özündə saxlayır.**

❑ **Elşad PAŞASOY**

# Görmürsünüzmü? Qərb ölür...



**Hüseynbala SƏLİMOV**

**Bəlkə də hələ bir əsr bundan qabaq A.Şpengler "Qərbin qürubu"nu yazarkən bununla bağlı xeyli mübahisələr və tərəddüdlər olmuşdu. Mən o əsəri oxumamışam. Amma onu deyə bilərəm ki, A.Şpengler ən azı azı yaxın müddətli perspektiv baxımından haqlı çıxdı - əsrin birinci yarısında Avropanı müharibələr və inqilablar öz ağuşuna aldı...**

Mənim Şpengler qədər iddiam yoxdur. Amma bir müddətdir görürəm ki, atıq Qərb adlı siyasi müstəvi tədricən aradan qalxır.

Nə qədər qəribə olsa da, bəzi "ucqar avtoritar məkan"ların insanları hələ də düşünürlər ki, onların ölkəsində bu və yaxud digər olay ona görə baş verir ki, bunları Qərb istəyir...

Halbuki, indi Qərb heç bir vaxt olmadığı qədər böyük böhranlar keçirir və başı tamamilə özünə qarışıbdır. Elə "avtoritar ucqarlar" da bunlardan istifadə edir, fürsəti fövtə vermirlər.

Baxın, ABŞ sanki öz daxilinə çəkilibdir. Böyük Britaniya Avropa Birliyindən çıxmaq prosedurlarını yerinə yetirməklə məşğuldur. Fransa "qaynayır", orada da oxşar çağırışlar eşidilir. Yalnız Almaniya NATO-nun və digər Avropa strukturlarının təəssübünü çəkməklə məşğuldur. Belə bir vəziyyətdə heç Avropanın başqa ölkələr, xüsusən də kiçik ucqar sərt, avtoritar cəngəlliklər yadına düşürmü?..

Prinsipcə, demək olardı ki, bəli, bütün bunlar onsuz da nə vaxtsa baş verməli idi, çünki NATO da, hətta Avropa Birliyi də müəyyən mənada soyuq müharibə dövrünün layihələri idi. Kommunizmə qarşı durmaq və Avropa ölkələrini ayağa qaldırıb Rusiyaya qarşı qoymaq üçün lazım idi bütün bunlar. Ona görə də kommunizm çəkildikcə, "ümumi düşmən" xofu aradan qalxdıqca, bunlar da duman kimi çəkilməlidi, çünki daha bir olmaq üçün elə bir zərurət yoxdur və indi birləşdirici məqamların deyil, fərqli məqamların axtarışı zamanıdır...

Belə desəniz, sözsüz ki, müəyyən qədər haqlı olarsınız. Hətta onu da deyim ki, Avropa Birliyinin də "mühərriy"i ABŞ idi. Deməli, "mühərrik" daha işləmək istəmirsə, avtomobil də gedə bilməyəcək...

Təsəvvür edin, elə bir vəziyyət yaranıb ki, birləşməyin, inteqrasiya olunmağın zəruriliyi haqda, Rusiya təhlükəsi haqda hamıdan çox Baltik ölkələrinin siyasətçiləri danışırlar. Digərləri isə buna bir az süni, hətta bir az da ironik təbəssümlə cavab verirlər...

Bəs onda nə olacaq? Dünya doğrudanmı tamam "yiyə"siz qalacaqdır? Heç nə demək olmur. Ona görə ki, hələ bir çox şeylər tapmaca olaraq öz mahiyyətini gizlədir. Bu mahiyyət nə vaxt çılpaqlaşacaq və biz nə vaxt o mətləbləri biləcəyik, - təəssüf ki, bu xüsusda hələ heç nə demək olmur.

Hər şeydən də əvvəl "yetim" qalan qlobal demokratiya səylərdir. Söz yox ki, onlar da müəyyən mənada soyuq müharibə dövrünün və ümumi cəhdlərin hissəsidi. Amma nə etmək olar? Bütün məqsədlərin mayasında başqa umacaqlar da olur. O üzdən bunu bağışlamaq olardı...

İndi nə olacaq? Ümumi demokratiya fonu əvəzinə ayrı-ayrı adalar qalacaqmı? Gənc demokratiyaların aqibəti nə olacaq? Mən bilmirəm və əgər siz bilirsinizsə, mənə də xəbər edin...

Prinsipcə, demək olardı ki, ayrı-ayrı yerlərdəki demokratiyaların taleyi həmin yerlərin insanlarının səylərindən asılı olacaqdır. Həmişə demişəm ki, ABŞ-da demokratiya qurularkən Avropa Şurası və yaxud da başqa bir demokratiya institutu yox idi. Amma quruldu...

İndi də insanlar səy etsələr çox şey edə bilərlər. Amma edirlərmi? Təəssüf, heç də hər yerdə yox. Ona görə də adam optimist olmaq üçün böyük əsaslar tapa bilmir...

Əksinə, dirçəliş, tərəqqi, demokratiya bir tərəfə, getdikcə gerilik, deqradasiya bərqərar olur. Hər şeyin bizdən - özümüzdən asılı olduğu bir vaxtda isə bunu qəbul etmək olduqca çətindir. Belə alınır ki, daha heç nəyə ümid bəsləmək lazım deyil, çünki hər şey özümüzdən asılıdır, özümüz isə...

Nə edək? Görən, başımıza hansı çarəni qılaq? Təəssüf bu xüsusda heç düşünən də yoxdur. Ona görə ki, belə düşünənlərin sayı artsaydı qutuluşa və dirçəlişə ümid də yaranardı, çünki hər şey ondan başlayır ki, hamı nəsə eyni bir şey haqqında fikirləşməyə başalyır. Bəli, zarafat deyil, Dekart deyirdi ki, düşünürəmsə, deməli yaşayıram...

Qərəz, indinin məlumu budur ki, Qərb bir generator və hami kimi ölür. Yetim kim və nələr qalacaqdır, - elə bunlar da bilinəcək...

YENİ MÜSAVAT
N 45 (6659) 28 fevral 2017

**Ermənistan prezidenti Serj Sərkisyanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son açıqlaması hiddət doğurub. Erməni rəhbər Müdafiə Nazirliyində silahlı qüvvələrin rəhbər heyətinin müşavirəsinə qatılıb.**

# Sərkisyan güzəştə getməyəcəklərini deyir - onu arxayın edən nədir?

## Elçin Mirzəbəyli: "Sərkisyan açıq danışmaq təlimatı alıb"

Novator.az-ın məlumatına görə, Sərkisyan müşavirədəki çıxışında Dağlıq Qarabağ münaqişəsinə də toxunub. O deyib ki, sülh danışıqlarında hər hansı bir irəliləyiş əlaməti görmür və buna görə də cəbhə xəttində sabitliyin qorunması üçün Ermənistanla Azərbaycanın qüvvələr nisbətinin bərabər olması vacibdir.

**Sərkisyan qeyd edib ki, Ermənistan indiki vəziyyətin saxlanmasının tərəfdarı deyil:** "Biz problemin həllini arzulayırıq. Ancaq azərbaycanlılar bizim üçün qəbuledilməz olan həll variantı təklif edir və məsələ uzanır".

**Ermənistan prezidenti danışıqların davam etdirilməsinə tərəfdar olduğunu vurğulayaraq deyib ki, birtərəfli güzəştlərlə sülhə nail olmaq mümkün deyil:** "Biz bunu anlayırıq və Azərbaycandan da birtərəfli güzəşt gözləmirik. İstərdik ki, Azərbaycan rəhbərliyi də bu məqamı başa düşsün".

Göründüyü kimi, Sərkisyan elə danışır ki, sanki başqa xalqı soyqırım edən, ərazilərini işğala məruz qoyan millətin rəhbəri deyil. O, açıq şəkildə ermənilərin güzəştə getməyəcəyinin anonslarını verir. Nəyə arxayın olub belə danışmağı isə sadəcə qəzəb doğurur. Ekspertlər aprel savaşından sonra Azərbaycanın əzici üstünlüyü qarşısında inləyən bir ölkənin rəhbərinin arxayın danışığının arxasında yenə də Rusiya amilinin dayandığını qeyd edirlər.

**Politoloq Elçin Mirzəbəyli hesab edir ki, Sərkisyanın dedikləri qarşıdan gələn parlament seçkilərinə hesablanıb:** "Sərkisyanın son açıqlamasında yer alan ənənəvi ritorika daha çox Ermənistanda aprelin 2-də keçiriləcək parlament seçkilərinə hesablanıb. Digər tərəfdən, ATƏT-in Minsk Qrupunun həmsədrlərindən birinin Rusiyanın son zamanlar sərgilədiyi mövqe, həmçinin digər həmsədr ölkənin prezidenti Fransua Ollandın ermənilərlə görüşdə səsləndirdiyi fikirlər də Sərkisyanı ruhlandırıb. Görünür, Sərkisyan komandasının seçkilərdən qalib çıxması üçün lazım olan zəmanəti alıb. Əks təqdirdə, uzunmüddətli susqunluqdan sonra bu qədər kəskin mövqe sərgiləməzdi. Bu prosesdə Ermənistan prezidentinin Seyran Ohanyanla razılaşdırılmış oyununun da müəyyən qədər rol oynadığını söyləmək olar. Müharibə ritorikası üzərində hakimiyyətini qoruyub saxlamağa çalışan Sərkisyan Kreml texnoloqlarının


Elçin Mirzəbəyli

dəstəyi ilə ondan narazı olan müharibə tərəfdarlarının Ohanyanın ətrafında cəmləşməsinə qismən də olsa nail ola bildi və görünən odur ki, parlament seçkilərindən sonra Ermənistan Qarabağ münaqişəsinin tənzimlənməsi müstəvisində daha kəskin və manipulyativ mövqe sərgiləyəcək. Parlament idarəçiliyi də bunun üçün daha əlverişli imkanlar yaradacaq. Çox güman ki, Sərkisyan güzəştə getməyəcəkləri barədə açıqlamalarında seçkilərdən sonrakı siyasi reallıqları da nəzərə alıb. Ermənistan prezidentinin Azərbaycanın güzəştə getməyəcəyi ilə bağlı söylədiklərini əsaslandırmaq üçün xüsusi intellektual potensiala malik olmaq lazım deyil. Hər şey gözlə görüləcək qədər sadə və bəsitdir".

**Politoloq Sərkisyanı bu cür danışmağa vadar edən amilin Kremlin siyasətində etdiyi dəyişikliklərlə bağlı olduğu qənaətindədir:** "Azərbaycanın birtərəfli sülhə getməsi kapitulyasiya anlamına gəlir. Birtərəfli sülh işğalla, ölkənin ərazi bütövlüyünün pozulması ilə barışmaq, ərazilərimizin itirilməsi ilə razılaşmaq, müstəqilliyimizi, suverenliyimizi itirmək deməkdir. Hazırda masa üzərində olan həll variantı Azərbaycanın gedə biləcəyi ən son güzəştdir. Bu, eyni zamanda Ermənistanın əldə edə biləcəyi ən əlverişli həll variantıdır. Azərbaycan bundan daha yaxşısını heç vaxt təklif etməyəcək və bu mümkün də deyil. Sərkisyanın açıqlamasında nəzərəçarpan əsas amil proseslərin arxasından Kremlin quyruğunun görünməsidir. Serjin hərbi ritorikanı gücləndirməsinin əsas səbəbi ola bilsin ki, Moskvanın mövqeyində baş verən dəyişikliklərlə bağlıdır. Qənaətimə görə, Sərkisyan son açıqlamasında daha çox Moskvanın sözçüsü kimi çıxış edir. Onun qüvvələr nisbəti barədə söylədikləri də Rusiyanın Ermənistandakı hərbi bazasının gücləndirilməsinə, yaxud işğalçı ölkəyə yeni silahların verilməsinə işarə kimi də qəbul oluna bilər. Münaqişənin həllində irəliləyişin görünmədiyi isə göz qabağındadır. İrəliləyişin baş verməsi üçün işğalçı qüvvələr Azərbaycan torpaqlarını tərk etməli, Rusiyanın Cənubi Qafqazdakı siyasətində ciddi dəyişikliklər baş verməlidir. Bu isə indiki şəraitdə inandırıcı görünmür. Sərkisyanın açıqlamasında pərdəarxası heç bir şey yoxdur. İşğalçı, yaxud Rusiyanın geosiyasi maraqlarını icra edən ölkənin başçısı kifayət qədər açıq danışır. Yəqin ki, Sərkisyan açıq danışmaq təlimatı alıb. Onun cümlələrinin arxasında isə öz mesajlarından daha çox havadarlarının mesajları dayanır. Ola bilsin ki, Moskva aprel döyüşlərindən sonrakı gözləntilərində bir qədər yanılıb. Və yaxud Azərbaycanın oyuna gəlmədiyini və gəlməyəcəyini anlayıb. Bütün hallarda bir çox suallara aprelin 2-dən sonra daha çox aydınlıq gətiriləcəyini düşünürəm".

❑ **Cavanşir ABBASLI**

# Ermənistan prezidentinin Xocalı etirafları Azərbaycana kömək edəcəkmi...

## Elxan Şahinoğlu: "Dedikləri onu beynəlxalq məhkəməyə vermək üçün kifayət edir"

**Hər il fevralın sonunda Ermənistanın hazırkı prezidenti Serj Sərkisyanın Xocalı faciəsi ilə bağlı etdiyi etiraflar gündəmə gəlir. Tomas de Vall "Qara Bağ" adlı kitabını yazarkən apardığı araşdırmalar çərçivəsində o vaxt Ermənistanın müdafiə naziri olan Sərkisyandan da müsahibə götürüb.**

Həmin müsahibədə Sərkisyan Xocalıda dinc sakinləri məqsədli şəkildə qırdıqlarını etiraf edir. Kitab dərc olunduqdan sonra erməni tərəfi müəllifi saxtakarlıqda ittiham etsə də, məlum olub ki, Tomas de Vall müsahibənin audioyazısını saxlayır. Məlum olur ki, Tomas de Vall Serj Sərkisyanla 2010-cu il dekabrın 15-də, Naxçıvanla Ermənistan sərhədində Azərbaycan müdafiə naziri Səfər Əbiyevlə görüşünün ardınca bir araya gəlib. Müsahibədə Sərkisyan məkrli siyasətlərini açıq şəkildə etiraf edir. Bu il isə erməni rəhbərin dedikləri daha çox müzakirə obyektinə çevrilib. Bu müsahibəni Azərbaycan tərəfin beynəlxalq tribunala qədər daşımasının vacibliyi vurğulanır. Ekspertlər bu müsahibənin Azərbaycana Xocalı qətliamının baiskarlarını cəzalandırmağa kömək edəcəyini bildirirlər.

**Politoloq Elxan Şahinoğlu Sərkisyanın Xocalıda qırğın törətdiklərini heç vaxt inkar etmədiyini söylədi:** "Ermənistan prezidenti Serj Sərkisyan Xocalıda etdiyi vəhşilikləri heç zaman inkar etməyib, əksinə, deyib ki, "qırğın vasitəsilə Azərbaycanın gözünü qorxutduq". Əlbəttə, rəsmi Bakı son illər Xocalı


Elxan Şahinoğlu

soyqırımının dünyada tanıtdırılmasında böyük işlər görüb. Onlarla ölkə və ABŞ-ın onlarla ştatının qanunverici orqanı Xocalı soyqırımını tanıyan qətnamələr qəbul edib. Xocalı soyqırımı haqqında çəkilən sənədli filmlər, nəşr edilən kitablar və yüzlərlə konfrans və seminarlar, dünyanın müxtəlif ölkələrində yürüş və mitinqlər Ermənistanın etdiyi vəhşilikləri beynəlxalq aləmə tanıtdırıb. Ancaq bu işi yekunlaşdırmaq lazımdır. Birincisi, Xocalıda soyqırım törədənlərin kimliyi müəyyələşdirilərək beynəlxalq məhkəməyə verilməlidir. İkincisi, Xocalı Cocuq Mərcanlı kimi yenidən azərbaycanlılar tərəfindən məskunlaşdırılmalıdır ki, biz müəyyən qədər mənəvi rahatlıq tapa bilək".

**Politoloq Ermənistan prezidentinin etiraflarının ölkəmizə ciddi kömək edə biləcəyini də vurğuladı:** "Serj Sərkisyanın dedikləri onu beynəlxalq məhkəməyə vermək üçün kifayət qədər əsas verir. Ermənilər yüz illərdir "erməni soyqırımı" deyib tutublar, ancaq hadisələrin şahidi yoxdur, arxivlərdəki sənədlər də qüsurludur. Ancaq Xocalı soyqırımı cəmi 25 il bundan əvvəl baş verib, şahidlər də var, görüntülər də. Ona görə də "erməni soyqırımı" ilə müqayisədə erməni separatçıların rus hərbi birləşməsi ilə birlikdə soyqırım törətdiyini sübut etmək çətin olmamalıdır. Sadəcə, bu bütöv bir ittiham olmalıdır. Siyahıda yalnız Sərkisyan deyil, bu gün Rusiya ərazisində yaşayan 366 alayın keçmiş əsgər və zabitləri də yer almalıdır. Azərbaycanın beynəlxalq məhkəməyə müraciət etməsi üçün hazırlıq işləri aparmaq lazımdır. Birinci bütün maddi sübutları və videogörüntüləri toplayıb sistemləşdirmək gərəkir. Bundan sonra ermənilərin soyqırım haqqında dediklərinin və hansı dəhşətləri törətdiklərinin etirafları toplanmalıdır. Əlbəttə, bütün bunlar o demək deyil ki, hüquqi prosesi qısa zamanda həyata keçirmək olar. Ancaq ən azı başlamaq lazımdır. Bosniya və Hersoqovinanın Srebrenitsa şəhərində qətliam Xocalıdakı qətliamdan 3 il sonra baş verib. Doğrudur, Srebrenitsada qətlə yetirilənlərin sayı dəfələrlə çox idi. Ancaq bu, məsələnin mahiyyətini dəyişmir. Srebrenitsa da silahlı serblər heç olmazsa qadın və uşaqlara yazıqları gələrək yalnız kişiləri qətlə yetirdilər, erməni separatçılar isə Xocalıda heç kimə sağ çıxmağa imkan vermədilər. Yəni Srebrenitsa kimi Xocalıdakı dəhşətə də beynəlxalq məhkəmədə baxılmasına və müqəssirlərin cəzalandırılmasına ehtiyac var. Xocalı soyqırımında Rusiyanın keçmiş hakimiyyətinin böyük günahı, cinayəti var. Çünki 366 alayın yarısından çoxu erməni separatçılarından ibarət idi. Yəni bu alay Rusiyaya aid olmaqla yanaşı, erməni separatçılarının maraqlarına xidmət edirdi. Bunu Kreml görür və susurdu, bəlkə də belə olmasına özləri şərait yaradırdılar. Ümumiyyətlə, rusiyalı zabitlər Xankəndindəki bazanı tərk etdikdə həyat yoldaşlarının xeyli qızıl və zinət əşyaları ilə tərk etmişdilər. Bunu mən Rusiyanın o zamankı nəşrlərindən birində oxumuşdum. Qızıl və zinət əşyaları isə həmin zabitlərə etdikləri "xidmətə" görə verilmişdi. Bu mənada İsrailin metodu yaxşıdır. Hansı ki terrorçu İsrail vətəndaşını qətlə yetirdikdə, onu dünyanın istənilən məntəqəsində tapıb ya İsrailə gətirirlər, ya da yerindəcə məhv edirlər..."

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 45 (6659) 28 fevral 2017



# "Yatmayan şəhər"də macəra zamanı - müxbirimiz Nyu Yorkun gecəsindən və gündüzündən yazır

## 25 dollarlıq Tramp, 15 dollarlıq Hilları və 8 dollarlıq Barak Obama almaq istəyirsiz?

(İkinci yazı)

**Bəli, Nyu-York bir gündə gəziləcək, seviləcək, heyran olunacaq şəhər deyil. Ona ilk baxışda aşiq olmaq olar, amma ürəyinə yol tapmaq üçün küçə-küçə, meydan-meydan, körpü-körpü gəzmək lazımdır.**

### Polis maşını saxladısa...

Birinci yazının sonunda bir polis maneəsi barədə yazmışdıq. Bunu soyuq şəkildə "maneə" adlandırmağıma fikir verməyin, amerikan filmlərindən gördüyümüz səhnənin birbəbir yaşanmasından gedirdi söhbət. Hadisə necə baş verdi? Türk sürücümüz Ərcan bəy piyada zolağına çatanda yolun qırağında dayanmış, amma keçib-keçməməkdə tərəddüd edən bir gəncə görə ciddi pul və bal cəzası qazandı. Gənc qulağında qulaqcıq, telefonla yazışaraq nə edəcəyinə qərar verə bilmirdi. Bir neçə saniyəlik tərəddüd və sürücüyə "sən keç" deyərək mesaj verdi. Bu anda qarşı tərəfdən gələn yol polisi də maşından olanları izləyirdi. Və budur, sürücü oğlanın nazik jestini qəbul edib, keçdi. Arxamızca da polis. Məlum oldu ki, yol polisi belə incəlikləri sevmir - qanun qanundur, piyadaya yol vermək lazım idi. Polisin saxlama əmrindən sonra maşın sağa verilib saxlanıldı.

Azərbaycandan fərqli olaraq, burda sürücü maşından düşüb, polislə salamlaşa bilməz. Bu, qanun pozuntusu sayılır və hətta polis bu davranışı sui-qəsd ehtimalı nəzərə alıb, silahına əl ata bilər. Sürücünün əlləri sükanın üstündə olmalıdır - polis onun əllərini görməlidir. Polislərdən kişi olan sürücüyə, qadın olansa qabaq oturacaqdakı sərnişinin qapısına yaxınlaşır. Qaranlıq olduğu üçün hər ikisinin əlində kiçik əl fənəri. Bir az vahiməli hətta. Maşındakı hər şeyi baxışları ilə incələyirlər. Sənədlərin tələbi və başlanan araşdırma. Təxminən 15 dəqiqə davam edir. Sürücü şikayətlənir: "İndi mənim bütün şəcərəmi araşdıracaqlar".

Araşdırma bitəndən sonra sürücüyə bal və təxminən 150 dollar həcmində pul cəriməsi yazılır. *(Yeri gəlmişkən, cərimənin məbləği, yol verilən pozuntuya görə verilən cəza hər ştatda fərqlidir- -müəl.)* Amma bu, sürücü üçün dünyanın sonu deyil. Onun məhkəməyə müraciət etməsi, suçsuzluğunu sübut edib, cərimə və bal cəzasından qurtulması mümkündür.

Orada da yol polisləri bizimkilər kimi hər cəzadan faiz qazanırlar.

### Nyu Yorkda iki dələduz taksi sürücüsü - belə də şans olar?

Polislərdən fərqli olaraq, küçədə gördüyünüz sıradan insanlar sizə yardım etməyə, anlayış göstərməyə hazırdırlar. Toxunanda üzr istəyən, yolu tapmayanda yanına düşüb yolu göstərən nyu-yorklunun ən azı üçünə şəxsən özüm rast gəldim. Yol göstərən, sualını məmnunluqla cavablayan nyu-yorklu nadir tapıntı sayılmaz. Amma bura əcaib insanlardan da xali deyil.





Nyu-Yorkdakı dostlar danışır ki, bəzən metrolarda bahalı telefon almaq üçün pul toplayan və bunu elanda yazan, ya da radiosunu açıb, metroda rəqs edən insanlara da rast gəlmək mümkündür. Siz şəhərin məşhur küçələrindən birində addımlayarkən rəqs edən gənclərin qələbəliyini görə və hətta onların "come on" çağırışlarının da ünvanı ola bilərsiz. Kompleksiniz yoxsa, niyə də qoşulmayasız?

Amma eyni pozitiv münasibəti taksi sürücülərindən görmək mümkün deyil. Bəlkə də şanssızlığım idi, amma Nyu-Yorkda iki dəfə taksi ilə kiçik səfərlər etdim, hər ikisində də dələduz sürücüyə tuş gəldim. Biri pakistanlı, digəri çinli. Birincisi ilə Nyu-Yorkdakı Ermənistan nümayəndəliyinin qarşısındakı aksiyaya gecikdiyim zaman qarşılaşdım. Hesab edin ki, Ayna Sultanova heykəlindən "Gənclik" metrosuna qədər olan yolu az qala Fəvvarələr meydanı-Neftçilər qədər uzatdı, uzatdı.... və üçqat artıq yol pulu aldı. Bəhanəsi hazır idi: siz tıxaca tuş gəlmisiz. İkincisi iləsə Nyu-Yorkdan aeroporta gedən gün qarşılaşdıq. Səhər saat 6 idi və aeroporta çatanda pulumun qalığını tez ovcuma basıb, "tez düşün" əmrini verdi. Tələsmədən ovcumdakı pulu saydım. Nə az, nə çox 16 dollar əskik vermişdi. Pozitiv tərəfimə salıb, bunun səhər yuxusuzluğunun verdiyi texniki yanlışlıq oduğunu düşünə bilərdim. Amma bunu deyəndə verdiyi aqressiv reaksiya təxminimi yanıltdı: adam sabahın korunda əcnəbi turisti aldatmaq istəmişdi və bu, baş tutmamışdı... 16 dolları qaytarıb, üzr istəmədən maşına minməsi də bunun sübutu idi.

Ümumiyyətlə, Nyu-Yorkda sıradan işləri əsasən qaradərililər və ya miqrantlar görür. Avtobus sürücüləri, təhlükəsizlik xidməti əməkdaşları, səyyar satıcılar və ya təmizlik işçiləri əsasən onlardan ibarətdir. Manhattandakı mağazalarda çalışanlar da ya hindistanlı, ya da asiyalıdır.

Nyu-York Manhattanda yer alan və şəhərin ürəyinin döyündüyü yer isə Times meydanıdır. Bura niyə "yatmayan şəhər" deyirlər, bilirsizmi? Həm də sözügedən meydanın energetikasına görə. Ora qədəm basan anda sənə elə gəlir ki, iri bir film studiyasındasan. Göydələnlər üzərinə yerləşdirilmiş qocaman ekranlar, işıqlı yazılar, reklam lövhələri və əlbəttə ki, hər addımdakı turistlər. Sonuncular meydana yerləşdirilmiş diyircəkli nərdivanlarda, ya da ətrafdakı kafelərin stullarında əyləşə bilərlər. Corc M.Cohanın heykəlinə baxmaq, ya da meydandakı şouları seyr etmək tərcihdən asılıdır. Mən meydana gedəndə axşam saat 9 radələri olsa da, şəkillərdən də gördüyünüz kimi, günorta ab-havası idi. Ekranların işığı küçəni aydınlatmışdı və bu, rahat, qorxusuz hərəkətə yardım edirdi. Təxminən bütün metro xətlərinin kəsişmə nöqtəsində yerləşən Times meydanının altında da olduqca geniş və çoxmərtəbəli metro stansiyası qurulub.

### 20 dollara bir şəkil, yarıçılpaq qızlar və daha nələr...

Meydan boyu gəzinti insanda bir şou proqramına seyrçi kimi qatılmısan təəssüratı yaşadır. Demək olar ki, hər addımda sənin ayaq saxlamana səbəb olacaq rəngarəng görüntülər, kiçik şoular var. Rəqs edən kim, şou göstərən kim, Disney xarakterlərinin geyimində səni şəkil çəkdirməyə dəvət edənlərdən isə heç danışmıram... Balaca uşağı olan hər kəs sonuncuları tərcih edir. Oğlumun sevimli cizgi film qəhrəmanını görüb, onunla şəkil çəkdirmədən getmək istəmədim. Birinə yaxınlaşdım, digər 4-nü də başıma yığdı. Sadəlövhcəsinə etiraz etmədim. Fotomuzu çəkdirdik, 1 dollar bəxşiş vermək istəyəndə az önçəki "sevimli qəhrəman"ların ağzından az qala etiraz alovu çıxdı. "Qrup şəkil üçün 20 dollar ödəməlisən!" Düşünün ki, bunu mənə - məmləkətində 20 dollara bir ailəni iki günlük ərzaqla təmin edə biləcək azərbaycanlıya dedilər. Bizim dollar "bespredelini", iki ildir üzən manatımız barədə reallığı onlara anladıb, ağlada bilərdim. Amma adları üstündə - Disney qəhrəmanları, əyləncə simvolları - qıymadım. Daha 1 dollar verib, etirazlarına da məhəl qoymayıb, yola davam etdim.

Əsla qorxmayın(!), meydanı gəzdiyiniz yerdə qarşınıza yarıçılpaq qızlar çıxa bilər. Qışın ortasında əyinlərində ancaq əyni olan, intim bölgələri isə boyalarla rənglənmiş "xatınlar"dan söz edirəm. Sırf onları görmək üçün meydana axışan yüzlərlə gənc var. Foto çəkdirib, 20-30 dollar ödəmək də bu zövqə daxildir. Meydanda yer alan mağazalar gec saatlara qədər açıqdır və qələbəlik də bitmək bilmir. Buranı həm gündüz, həm də gecə görmək məsləhətdir. Hər birində yeni dünya kəşf edirsiz sanki.

Hər şeyi belə ballandırıb danışmağıma baxmayın. Meydanın yanında gecələyən və yanından keçəndə üfunətdən burnunu tutduğun bomjlar da Nyu Yorkun "bəzəyi"dir.

### Azadlıq heykəlinin başına çıxıb azad olmaq mümkün - 27 dollarınız var?

Nyu-Yorkun qəlbi haradır, bilirsizmi? Manhattan adasının orta mərkəzində yerləşən, Nyu-Yorkdan daha çox Amerikanın ən önəmli simvollarından olan Azadlıq heykəli (Statue of Liberty). O, özü ilə eyni adı daşıyan olduqca kiçik bir adanın üzərində inşa edilmiş simvolik dəyərli bir heykəldir. 46 metr hündürlükdəki bu heykəli görmək üçün Manhattanın aşağı bölgəsində yerləşən Battery Parkdan hərəkət edən gəmi və qayıqlardan istifadə etmək mümkündür. Nyu York Pass kimi kartlar sayəsində adaya və ya Azadlıq heykəlinin başına (tac hissəsinə) getmək də mümkündür. Bunun üçünsə 27 dollarınızdan keçməlisiniz.

### Bura Nyu Yorkun ağciyəridir, gedək nəfəs alaq

Nyu-Yorka gəlib, onun qəlbi ilə tanış olmamaq isə sadəcə günahdır. Uzunluğu 4, genişliyi isə 1 kilometr həndəvərində olan Central Park bu şəhərin ağciyəridir. İçərisində böyüklü-kiçikli göllər, beysbol sahələri, velosiped yolları, amfiteatrlar var. Parkın içərisindəki zooparkı isə unutmaq olmaz. Parkın hər küncündə bir başqa şou görmək mümkündür. Biri komediyaçı geyimində müxtəlif komik hərəkətlərlə uşaqları güldürməyə çalışır, bir başqası böyük köpük şarlarla görənləri heyrətə salır. Təbii ki, hamısının qabağında da kiçik papaqları var: baxmısansa pul da atacaqsan. Parkı tam gəzmək üçün ən azı yarım gününüzü ayırmalısınız. Mənim kimi sıx səfər qrafiki tərtib edən biri üçün Central Park dadımlıq oldu, sadəcə. Amma gələnlər daha çox gölməçələrdəki su maşınlarından istifadə edir, ya da velosiped kirayələyib, ağciyərlərinə bayram verir. Bundan başqa, parkın girişindəki faytonlarla da əyləncəli səyahət etmək mümkündür.

Bu arada... Ümumiyyətlə, Nyu York başda gecələmək üzrə, bir çox məsələdə olduqca bahalı bir şəhərdir. İki ulduzlu, ya da ulduzu olmayan, standartlardan aşağı bir hotel üçün belə günlük ən azı 70-80 dollar ödəmək lazımdır. Bəzən macəra həvəskarları daha az pul ödəyib, daha çox macəra yaşamaq üçün hostelləri tərcih edirlər. Bu halda həm tanımadığınız insanlarla eyni otağı paylaşmaq məcburiyyətində qalırsız, həm də şəhərdən xeyli uzaqlaşırsız.







### 25 dollarlıq Tramp, 15 dollarlıq Hilları və 8 dollarlıq Barak Obama almaq olar

Nyu-York dünyanın ən bahalı şəhərləri siyahısında ilk onluqda yer alır. Burada geyim və ərzaq qiymətləri Amerikanın bir çox şəhərlərindən daha bahadır. Amma bura gəlmədən öncə kiçicik araşdırma aparıb, qazanclı çıxmaq olar. Məsələn, ağıllı turistlər daha çox Nyu York Pass alırlar. Günlük, iki günlük, üç günlük və bir həftəlik seçənəkləri olan bu sistem sayəsində Empire State Binasından tutmuş, bir çox muzeyə, Azadlıq meydanında velosiped kirayəsinə, gəmi turuna qədər bir çox əyləncədən bu sistem vasitəsilə yararlanmaq mümkündür. 150 dollar qiyməti olan 3 günlük bir Nyu York Pass kartı ilə 10-15 muzeyə pulsuz girmək, gəmi turuna qatılmaq, göydələnlərin başına çıxmaq, velosiped kirayələmək mümkündür. Üstəgəl, üstüaçıq tur avtobuslarında da gediş qazanmaq olar.

Mən hər xarici səfərimdə etdiyim kimi, üstüaçıq avtobus turunu tərcih etdim. Bir saatlıq tur 30 dollar idi. Amma bunun bir neçə saat və bir günlük variantları, buna müvafiq qiymətləri də var.

Aksessuar mağazalarındakı siyasətçi heykəlləri isə məni ən çox təəccübləndirən oldu. Trampdan Hillariyə, Obamadan Səddama, Putinə qədər hamının heykəli var. Məsələn, Tarmp prezidentdir deyə onun heykəlciyi 24.99 dollara satılır. Hilları isə 14.99 dollaradır. Obamanınsa ancaq kiçik heykəlləri satılır, özü də 7.99. Hey gidi dünya, vəzifənin gözü kor olsun... Hətta Amerikada belə ekslərin hörməti yoxdur...

Sonda... "Bəs Nyu Yorkda, amerikanlarda filan məsələ necədir" kimi sualları eşidir kimiyəm. Amma Amerika səfərimiz davam etdiyi sürəcə bunlardan da danışacağıq. Bundan sonrakı dayanacaqlarımızda digər Amerika ştatlarında olacağıq. Bu möhtəşəm ölkə iki reportaja sığacaq qədər bəsit olsaydı... dünyaya hökm edə bilərdimi?

**P.S.** *Növbəti yazılarımızda sizi Nyu Yorkda yaşayan azərbaycanlı həmyerlilərimizin hekayələri ilə tanış edəcəyik. Onları klassik mühacirlərdən fərqləndirən cəhətlər, fərqli dünyalar... "Yeni Müsavat"ın Amerika layihəsini izləməyə davam edin...*

❑ Sevinc TELMANQIZI
❑ Nyu-York, Amerika

YENİ MÜSAVAT
N 45 (6659) 28 fevral 2017

# Azərbaycanın enerji layihələri təhdid altında

**Azərbaycanın müstəqillik illərində qazandığı ən böyük uğurlardan biri də beynəlxalq miqyaslı enerji və nəqliyyat layihələrinə imza atmasıdır. Cənub Qaz Dəhlizi, TAP, TANAP , Bakı-Tiflis-Qars dəmir yolu və digər beynəlxalq əhəmiyyətli layihələr təkcə ölkəmizin deyil, Avropanın, ABŞ-ın və digər bir çox ölkələrin də marağındadır. Bu layihələr həyata keçirilərkən vurğulanan ən önəmli nüanslardan biri də bu idi ki, enerji layihələrində maraqlı olan ölkələr Cənubi Qafqazda sülh və təhlükəsizliyin bərpa olunmasında da maraqlı olacaqlar. Lakin son baş verənlər onu göstərir ki, bütün bu beynəlxalq səviyyəli layihələrə rəğmən nə Qərb, nə də Rusiya Cənubi Qafqazda sülhün yaranmasında maraqlı deyil.**

## Avropa beynəlxalq enerji layihələrinin təhlükədə olmasına niyə göz yumur?



Arzu Nağıyev

Bəs görəsən, bu məsələlərdə Qərblə Rusiyanın mövqeyi üst-üstə düşürmü?

**Bu sualı cavablandıran politoloq Arzu Nağıyev** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, maraqlı dövlətlər həm də bu iri layihələrin təhlükəsizliyinə təminat verməlidirlər: "Bu cür beynəlxalq layihələrin həyata keçirilməsində əsas şərt bu layihələrdə maraqlı olan dövlətlərin həmin bölgədə təhlükəsizliyə zəmanət verməsidir. TAP, TANAP, Cənub Qaz Dəhlizi layihələri və sair məsələlərdə də məşvərət məclisinin keçirilməsi də buna xidmət edirdi ki, maraqlı dövlətlər onun öz ərazilərindən keçən hissəsində tam zəmanət versinlər. Azərbaycan bir dövlət olaraq layihənin öz ərazisindən keçən hissəsinə zəmanət verməlidir. Bu zəmanət dövlətdən ayrı olmamalıdır. Bundan əlavə, maliyyə mənbələri müəyyən olunmalıdır, vergi və gömrük məsələləri həll olunmalıdır, yarana biləcək təhdid və təhlükələrin hüquqi müstəvidə həlli imkanları nəzərdə tutulmalıdır. Bütün bu şərtlər olmasa hər hansı layihənin həyata keçirilməsi mümkün deyil. Məhz Bakı-Tiflis-Ceyhan neft kəmərində də bu proseslər baş verəndə də siyasi müstəvidə çözüldü. Təsəvvür edin ki, Azərbaycanda hazırda 7 kəmər fəaliyyət göstərir. Bunlardan 3-ü neft, 4-ü qaz layihələri ilə bağlı kəmərlərdir. Cənub Qaz Dəhlizi sonuncu olacaq. Buna görə də nazirlər səviyyəsində, ABŞ və Böyük Britaniyanın səfirliyi səviyyəsində bu məsələlər məşvərət məclisində müzakirə olundu".

**Arzu Nağıyevin sözlərinə görə, bəzi dövlətlər buna ikili standartla yanaşır-lar:** "Sizin dediyinizdə həqiqət var ki, Ermənistan silahlı qüvvələri məhz kəmərin keçdiyi əraziyə təhdidlər etməyə başladılar. Gədəbəy və Qazax bölgəsindən keçən boru kəmərləri istiqamətində atmağa çalışırdılar ki, bu istiqamətdən də cavab atəşi olsun. Bunların qarşısı vaxtı-vaxtında alınır. Eyni zamanda beynəlxalq təşkilatlar onlara təzyiq göstərir. Lakin marağı olmayan dövlətlər, yəni bu beynəlxalq layihələrdən faydalana bilməyən dövlətlər bu proseslərdən istifadə etməyə çalışırlar. Məsələn, məlumdur ki, Rusiyadan iki kəmərlə Avropaya qaz çatdırılır. Bunlardan biri Şimal xəttidir, digər isə Cənub xəttidir. Cənub xətti Ukrayna ərazisindən keçir və məhz bu xətt 2014-cü ildə böyük təhdidlərə məruz qaldığına, bu kanaldan Rusiya Avropaya qarşı siyasi məqsədlər üçün istifadə etdiyinə görə alternativ kəmər məsələsi ortaya çıxdı. Bütün bunlar nəzərə alınmalıdır. Rusiya və Qərbin maraqları bəzi məsələlərdə üst-üstə düşmür. Bu da müəyyən konfliktlərin yaranmasına gətirib çıxara bilər. Ona görə də bu cür məşvərət məclisləri uzanır. Orada bütün məsələlər son detala qədər hesablanır və problemin həllinin çözülməsi istiqamətində müəyyən addımlar atılır. Ermənistan və onun havadarları çalışır ki, Cənubi Qafqazda sülhün təmin olunmasına imkan verməsinlər, son atışmalar da bununla bağlı idi. Beynəlxalq layihələr Cənubi Qafqazda sülhün təminatçısı idi. Artıq burada Avropa da öz maraqlarını ortaya qoymalıdır və ikili standartlardan əl çəkməlidirlər".

**Milli Məclisin deputatı Vahid Əhmədov isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Cənubi Qafqazda sabitliyin yaranması Dağlıq Qarabağ probleminin həllindən keçir:** "Cənubi Qafqazda maraqlar toqquşur və Azərbaycan xüsusilə bu bölgədə önəmli bir dövlətə çevrildiyi üçün, kifayət qədər karbohidrogen ehtiyatları olduğu üçün həm Qərb, həm də qonşu dövlətlər Azərbaycanda təsir dairələrini genişlədirmək istəyirlər. Müəyyən çətinliklər olsa da bu layihələr həyata keçirilir. Cənub Qaz Dəhlizi ilə əlaqədar elə bir ciddi problem yoxdur. Nəhayət, bu layihənin həyata keçirilməsinə başlanılıb. 2018-ci ildə tamamlanması gözlənilir. Son vaxtlar Dağlıq Qarabağ ətrafında baş verən hadisələr, Xocalı faciəsinin 25-ci ildönümü ərəfəsində yaşananlar, atışmalar Ermənistan və onun havadarları tərəfindən törədilən təxribatdır ki, bölgədə sabitlik olmasın. Sabitlik məsələsi isə Qarabağdan keçir. Çünki Qarabağ məsələsi həll olunmayana qədər bu dövlətlər Azərbaycanda müəyyən təxribatlar həyata keçirəcəklər. Ona görə də istər Azərbaycan, istər Qərb, istər Rusiya, İran, Türkiyə və digər dövlətlər üçün ən önəmli məsələ Dağlıq Qarabağ məsələsini həll edib Azərbaycanda sabitliyə nail olmaqdır. Bakı-Tiflisi-Qars dəmir yolu, Cənub Qaz Dəhlizi kimi iri layihələr bütün problemlərə rəğmən həyata keçiriləcək. Çünki burada siyasi qərarlar var, Avropanın marağında olan layihələrdir".

❑ Nərgiz LİFTİYEVA

# Əlverişli hava kənd təsərrüfatına nə fayda verəcək...

## Natiq Cəfərli: "Ola bilər ki, Kənd Təsərrüfatı Nazirliyinin verdiyi açıqlama bir müddət sonra özünü doğrultmasın"



**Hazırda əsl yaz havası yaşanır ki, bu da daha çox kəndlilərin sevincinə səbəb olur. Çünki hava nə qədər mülayim keçərsə, kənd təsərrüfatı məhsulları da bir o qədər bol olacaq deməkdir. Ancaq Azərbaycanda hərdən təbiət öz şıltaqlığını sonrakı dövrə saxlayır, yağış-qar çox olur. Bu da kənd təsərrüfatına ciddi ziyan verə və kənd təsərrüfatı məhsullarında qıtlıq yaşana bilər. Qıtlıq olduqda isə həmin məhsulların qiyməti baha satılır. Necə ki, bu qıtlığı və bahalaşmanı ötən il bəzi meyvə və tərəvəzlərdə müşahidə etdik.**

**Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidmətinin rəhbəri Murtuzəli Hacıyev** qəzetimizin ötən sayındakı açıqlamasında bu cür havaların kənd təsərrüfatı üçün müsbət olduğunu bildirib: "Torpaqda rütubətin çox olmasının məhsuldarlığa çox müsbət təsiri var. Hazırda qarın yağmasının meyvəçiliyə də ziyanı yoxdur. Qar və şaxtanın meyvə bağlarında zərərvericilərin, xəstəliklərin məhv olmasına müsbət təsiri var. Eyni zamanda da taxıl sahələrində gəmiricilərin məhv olmasında qar mühüm rol oynayır. Hazırkı hava şəraitinin kənd təsərrüfatına elə bir ziyanı yoxdur".

**M. Hacıyev də vurğuladı ki, mart ayında, ağaclar çiçəklənən vaxtda hava bu cür qarlı-şaxtalı keçsə, meyvəçiliyə mənfi təsir göstərə bilər:** "Hər ağacın özünün şaxtaya davamlılıq qabiliyyəti var. Hələlik bölgələrə yağan yağıntının təsiri müsbət istiqamətdədir".

Maraqlıdır, kənd təsərrüfatı və bağçılıq sahəsində bu il bolluq yaşanarsa, bu, iqtisadiyyata müəyyən qədər müsbət təsir göstərə bilərmi?

**İqtisadçı ekspert Natiq Cəfərli bildirdi ki, əkin vaxtı havalar kəskin dəyişərsə, bu, məhsuldarlığa ciddi təsir edə bilər:** "Hava şəraitinin necə olacağını nəzərə almadan bu tipli bəyanatlar verib xalqı, ictimaiyyəti sakitləşdirməyə çalışırlarsa, bu tamamilə məntiqsiz bir yoldur. Çünki kənd təsərrüfatı elə bir sahədir ki, bir günün içində havanın dəyişməsi, şaxtanın olması, dolunun düşməsi ilə əlaqədar məhsuldarlığa ciddi təsir edən proseslər ola bilər. Yəni bu açıqlamaların arxasında texniki bir analiz də olsaydı ki, hansı sahələrdə artım müşahidə olunacaq, hansı bitki növü üzrə əkin sahələrinin səviyyəsi nə qədər artıb, hər hektardan orta nə qədər məhsuldarlıq gözlənildiyini açıqlasaydı, bu daha peşəkar olardı. Yoxsa bir fikri arxasında hansısa peşəkar bir araşdırma durmadan arzu kimi səsləndirmək ciddi deyil. O cümlədən də hava şəraitinin, dediyim kimi, buna təsiretmə dərəcəsini nəzərə alsaq, ola bilər ki, Kənd Təsərrüfatı Nazirliyinin verdiyi açıqlama bir müddət sonra özünü doğrultmasın. Çünki əkin vaxtı və yaxud da meyvələrin, kənd təsərrüfatı bitkilərinin yetişdiyi bir vaxtda hava şəraitinin kəskin dəyişməsi məhsuldarlığa birbaşa təsir göstərəcək. Əgər ciddi peşəkar analizlər olarsa, çox yaxşı olar ki, bunu da açıqlasınlar. Biz də bu hesablamalara baxaraq bir qərar və ya fikir bildirməyi daha doğru və məntiqli sayardıq".

❑ Günel MANAFLI

**Liviyanın devrilmiş diktatoru Müəmmər Qəddafinin hazırda Misirdə yaşayan əmisi oğlu Əhməd Qəzzaf əd-Dam bu ölkədə baş verən inqilabın nəticələri ilə bağlı maraqlı açıqlamalar verib. Onun inqilabın 6 ilinin tamam olması ilə bağlı "RİA Novosti"yə verdiyi müsahibəni strateq.az saytı yayımlayıb.**

# Qəzzafinin və Liviyanın yoxa çıxmış xəzinəsi

## Diktatorun 700 milyardlıq sərvəti "itsə" də, zəngin Liviya mirası uğrunda savaş hələ davam edir



Liviyada inqilab adlanan proseslərin əslində kənardan idarə olunduğunu iddia edən Qəzzafinin qohumu bir sıra maraqlı faktlar da açıqlayıb. Əhməd Qəzzaf deyib ki, keçmiş hakimiyyətin Liviyadan kənarda və ölkə daxilində 600 milyard dolları, tonlarla qızıl və gümüşü olub. Liviyanın dünya üzrə nağd valyuta ehtiyatlarına görə səkkizinci yeri tutduğunu deyən Qəzzafinin qohumu bu pulların hamısının qarət olunduğunu iddia edib. Sitat: "Ölkədə nə qalmışdısa, qarət olunub. Bu altı ildə daş üstünə bir daş da qoyulmayıb. Paytaxt küçələri işıqsızdır, su təchizatı kəsilib, maaşlar verilmir. Lakin NATO raketlərinin köməyi ilə hakimiyyətə gəlmiş bu oyuncaqlar Misirdəki "Müsəlman qardaşlar" hökumətinə iki milyard dollar ödəmişdi ki, məni təhvil versinlər".

**O, baş verənlərə görə, Qərb ölkələrini və NATO-nu ittiham edib:** "Şübhəsiz, BMT Təhlükəsizlik Şurası və NATO bloku məsuliyyət daşıyır. Liviyada baş vermiş dağıntılar, ölkə infrastrukturunun məruz qaldığı böyük dağıntılar, qətllər, ölkə sakinlərinin üçdə birinin məcburi köçü, yaralılar, oğurlanmış milyardlar, qədim abidələr, qızıla, urana görə, lakin ən başlıcası, bütün dünyaya səpələnmiş liviyalıların alçaldılmış ləyaqətinə görə. ABŞ-ın keçmiş prezidenti Barak Obamanın, Böyük Britaniya İcmalar Palatası Komissiyasının, İtaliyanın keçmiş baş naziri Silvio Berluskoninin səhvlərini etiraf etməsindən sonra biz üzr istənilməsini tələb edirik. Səhv buraxanlar səhvini düzəltməlidir".

Xatırladaq ki, 1969-cu ildə Liviyada Misirdə baş verən "polkovniklərin üsyanının" təsiri ilə hərbi çevriliş olub və kral İdris devrilib. Ondan sonra hakimiyyətə polkovnik Müəmmar Qəzzafi gəlib və ölkəni 42 il, yəni 2011-ci ildə devrilib qətlə yetirilənə qədər idarə edib. 42 il polkovnik Qəzzafinin dəmir yumruqla idarə etdiyi Liviyada inqilab 2011-ci ilin fevralında Tunis və Misir inqilabının ardınca baş verib. Ancaq etirazlara zorakılıqla cavab verən Qəzzafiyə qarşı Qərb yerli müxalifləri silahlandırmaqla yanaşı, NATO-nun hava hücumlarını da təşkil etdi. Hava zərbələri və Qərbin dəstəklədiyi silahlı qruplar Qəzzafinin tərəfdarlarını məğlub etdilər, özünü isə 2011-ci il oktyabrın 20-də yaralı ələ keçirdikdən sonra linç etdilər. Liviyada 42 il davam edən Qəzzafi erası beləcə başa çatdı.

Ancaq bütün faciələr də bundan sonra başladı. 2012-ci ilin yayında seçkilərlə yeni hökumət formalaşdırılsa da, ölkədə sabitlik yaratmaq mümkün olmadı. Müxtəlif silahlı qruplar, tayfa birləşmələrini tərk-silah etmək mümkün olmadı. Əksinə, silahlı qruplar tezliklə ölkədə xaosa səbəb oldular və Liviya nəzarətsiz silahlı qrupların oylağına çevrildi. 2012-ci ildə Benqazi şəhərində ABŞ konsulluğuna hücum edən radikal terror qruplaşmasının üzvləri səfir Kristofer Stivensi qətlə yetirdilər.

Lakin çox tezliklə məlum oldu ki, Liviyada "əl-Qaidə" də daxil olmaqla, müxtəlif radikal dini cərəyanlara məxsus silahlı qruplar var. Ötən il isə İŞİD Liviyaya yerləşdiyini bəyan etdi. Bir neçə ay əvvəl İŞİD-in Liviyadakı qolu Qəzzafinin məmləkəti olan Sirtəni ələ keçirib. Ondan əvvəl isə Dərnə şəhəri İŞİD-in əlinə keçib.

Liviyanın özü isə 2014-cü ilin may ayından etibarən faktiki olaraq iki hissəyə bölünüb. Bundan sonrakı dövrdə iki tərəf arasında qanlı savaş davam edib. Ölkənin qərb hissəsində, paytaxt Tripolidə (Misrata əyaləti) möhkəmlənən islamçı hakimiyyət şərq bölgəsində Tabruk şəhərində yerləşən hökumətlə müharibə vəziyyətindədir. 2012-ci ildə seçilmiş Liviya parlamenti və hökumət hazırda Tabrukda yerləşir və qərbdə islamçılarla müharibə aparır.

Qeyd edək ki, Liviya inqilaba qədər ən zəngin ərəb ölkələrindən biri, səhrada neft zənginliyinin parıltısının göz qamaşdırdığı ölkələrdən biri idi. Şimali Afrikanın neft zəngini səhra ölkəsi Liviyanın ərazisi 1,77 milyon kv.km, əhalisi isə 6,5 milyon nəfər (inqilaba qədər) idi. Dünyada ən çox neft ixrac edən 8-ci ölkə olan Liviyada Qəzzafi dönəmində gündəlik 2 milyon barel neft istehsal olunub. Bu isə 6,5 milyon əhalisi olan ölkə üçün böyük göstərici hesab olunurdu. Liviyada adambaşına düşən milli gəlir 12 min dollardan artıq olub, ölkənin 70 milyard dollara yaxın maliyyə ehtiyatları olub.

İnqilabın ilk illərində ekspertlər Qəzzafi ailəsinin Avstraliyadan Britaniyaya qədər müxtəlif ölkələrdə, offşor hesablarda, daşınmaz əmlak şəklindəki 240 milyard dollarlıq sərvətinin yox olduğunu bildirirdilər. Məlum məsələdir ki, diktatorun sərvətlərinin yerini ən yaxşı Qərbin xüsusi xidmət orqanları və müvafiq qurumları bilirdi. Bu vəsaitlərin bir hissəsi yəqin ki, heç zaman üzə çıxmayacaq, bir hissəsi isə diktatorun əmlakı kimi "dondurulacaq". Oxşar vəziyyət İran şahının sərvətləri ilə bağlı oldu. Şahın 13 milyard dollarlıq sərvəti hələ də ABŞ banklarında "dondurulmuş" vəziyyətdədir. Yeri gəlmişkən, Misirdə inqilabdan sonra Hüsnü Mübarək ailəsinin Qərb banklarında 80 milyard dollar sərvətinin "batdığı" haqda bilgilər dolaşırdı. Aydın məsələdir ki, bu pullar "çirkli" olduğu üçün diktatorların varisləri də onun arxasınca düşə bilmir. Oxşar vəziyyətin Tunis diktatoru Zeynəlabdin bin Əli, İraq diktatoru Səddam Hüseynin sərvətinin başına gəldiyi haqda iddialar mövcuddur. İstənilən halda Şərqin soyğunçu avtoritar liderlərinin Qərb banklarında gizlədilən pulları hansısa bir zamanda yenidən "öz əsl sahiblərinə" geri qayıdır.

Amma Liviyada savaşın davam etməsi ölkənin hələ də mövcud zəngin ehtiyatları ilə bağlıdır. Liviyanın hətta indiki gücü ilə böyük neft-qaz istehsalı potensialı var. Bu isə bu ölkə uğrunda mübarizəni daha da şiddətləndirir. Hazırda ölkə faktiki olaraq iki hissəyə bölünüb. Ancaq eyni zamanda İŞİD Liviyanın bir sıra bölgələrində hələ də güclüdür, Sirtə və Derna şəhərlərinə nəzarət edir. Bundan başqa, üsyandan sonra müstəqil hərəkət edən və Qəzzafi zamanında olduğu kimi mərkəzi hökumətlə bağlarını qoparan yerli tayfaların hər birinin özünün silahlı dəstələri mövcuddur. Belə bir vəziyyətdə Liviyada pərakəndə silahlı gücləri bir araya gətirərək ölkədə birlik yaradacaq qüvvə hələlik yoxdur. Liviyada yenidən birlik əldə etmək üçün güclü liderə və silaha ehtiyac var. Bu isə hələ zaman alacaq.

❑ **Kənan RÖVŞƏNOĞLU**



# Tramp mediaya savaş açdı; qalib kim olacaq?

## ABŞ prezidentinin davranışları dünyaya pis nümunə ola bilər

**Məlum olduğu kimi, CNN" telekanalının, eləcə də "The New York Times", "Los Angeles Times" və "Politico" qəzetlərinin əməkdaşları Ağ Evdə keçirilən brifinqə buraxılmayıb. Bu barədə "CNN" məlumat yayıb. Telekanalın müxbirinin sözlərinə görə, Ağ Evdə brifinqin keçirildiyi salona daxil olarkən mühafizəçilər onu saxlayaraq bildiriblər ki, onun adı iştirak edəcək şəxslərin siyahısında yoxdur.**

Prezident Donald Trampın administrasiyası hələ ki xəbəri şərh etməyib.

"Associated Press" informasiya agentliyinin jurnalisti həmrəylik naminə brifinqi boykot edib. O, öz etirazını Ağ Evin Müxbirlər Dərnəyinə bildirib.

"CNN"in məlumatına görə, brifinqdə "Breitbart News", "The Washington Times" və "One America News Network" konservativ nəşrlərinin müxbirləri iştirak edib.

Xatırladaq ki, D. Tramp fevralın 18-də çıxışlarından birində "NBC", "CBS", "CNN", "ABC" teleşirkətlərini və "The New York Times" qəzetini Amerika xalqının düşməni adlandırıb, yanvarın 11-də mətbuat konfransı zamanı isə "CNN"in müxbirinin sualını cavablandırmaqdan imtina edib.

Bəs görəsən, ABŞ kmi demokratiyanın beşiyi adlanan bir ölkənin prezidentinin mediaya düşmən mövqedə durması dünyada media azadlığının durumuna, jurnalistlərin təhlükəsizliyi məsələsinə necə təsir edəcək?

Məsələni şərh edən ekspertlərin fikirləri o qədər də nikbin deyil.

**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu, dünya üçün çox pis nümunədir:** "Əgər Amerikanın dövlət başçısı belə edirsə, o deməkdir ki, bu başqalarına da örnək ola bilər. Azərbaycanda da mediaya qarşı edilən təzyiqlər, bloggerlərin, sosial şəbəkə istifadəçilərinin həbsi və sair də onun bir təzahürüdür. Amerika cəmiyyəti Trampa lazım olan reaksiyanı gec-tez verəcək. Hələ ki hamı şok vəziyyətindədir. Bu ölkədə ilk dəfədir ki, belə bir presedent yaşanır. Zaman-zaman media və məmurlar arasında belə problemlər olsa da daha çox hüquqi müstəvidə həll olunur. Ancaq jurnalisti brifinqə buraxmamaq Amerikada ilk dəfə yaşanır. Bu, Azərbaycanda mövcud olan bir ənənədir. "Turan" informasiya agentliyi olaraq bizi rəsmi tədbirlərə buraxmırlar. Amma Amerikada bu hər kəsi şoka salıb. Hesab edirəm ki, bu məsələ getdikcə daha da aktuallaşacaq və hansısa formada həllini tapacaq. Hesab edirəm ki, son olaraq ABŞ Konstitusiyası və qanunları bu prosesdən qalib çıxacaq. Trampın bu təcrübəsi isə hamıya örnək olacaq. ABŞ qanunlarla idarə olunan bir dövlətdir, orada qanun kifayət qədər güclü işləyir. Ona görə də bu məsələ müsbət həllini tapacaq".

**"Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyev də fərqli fikir səsləndirmədi. Onun fikrincə, Trampın bu hərəkətləri dünyada medianın durumuna mənfi təsir edəcək:** "Son illərdə bütün dünyada media azadlığı sahəsində ciddi problemlər üzə çıxır və getdikcə artmaqdadır. Bu, həm internet mediasının məhdudlaşdırılması şərtlərində özünü göstərir, həm də terrorla bağlı məsələlərdə bəzi qərarların qəbul olunmasında müşahidə olunur. Ancaq ayrı-ayrı prezidentlərin, rəhbər şəxslərin mediaya hücumları daha böyük təhlükə kəsb edir. Bu artıq ABŞ prezidenti səviyyəsində dəfələrlə qeydə alınır. Hətta iş o yerə çatır ki, dünyanın ən aparıcı jurnalist təşkilatları son onilliklərdə ilk dəfə belə məsələlərə reaksiya verməli olublar. Amerikanın ayrı-ayrı siyasətçilərinin, Konqres üzvlərinin çıxışları olub. Hətta təşkilatların da çıxışları olub. Ancaq Konqres səviyyəsində, ayrı-ayrı komissiyalar səviyyəsində bu məsələyə reaksiya verilmir. Mən bunun ABŞ siyasi praktikasında nə dərəcədə qəbul olunmuş bir hal olduğunu bilmirəm. Ancaq hesab edirəm ki, həmin məsələlər ardıcıl mahiyyət kəsb etsə biz bunun şahidi olacağıq. Digər tərəfdən, bir çox qurumlar Trampın fəaliyyətini sakit və narahat şəkildə izləməkdədirlər. Bu yaxınlarda mən bir kanadalı politoloqla söhbət edirdim. O bildirdi ki, Trampın çıxışları çox da yetkin olmayan məktəb şagirdinin çıxışlarını xatırladır. Bu da gələcək üçün çox ciddi narahatlıq doğurur. Mən düşünürəm ki, Trampın yürütdüyü siyasət yəqin ki, bu yaxınlarda Konqres və digər qurumların reaksiyasına səbəb olacaq".

❑ **Nərgiz LİFTİYEVA**

# Novruzda 9 gün bayram olacaq



**Azərbaycanda mart ayı ərzində bayram və istirahət günləri nəzərə alınmaqla, 14 günədək qeyri-iş günü olacaq. Ay ərzində 2 bayram qeyd olunacaq. Ölkə qanunvericiliyinə uyğun olaraq, 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə 1 gün, Novruz bayramı münasibəti ilə 20-24 mart tarixləri, yəni 5 gün qeyri-iş günü hesab edilir. Bu il Novruz bayramı günlərində 5 günlük iş həftəsi ilə işləyənlər 9 gün, başqa sözlə, martın 18-dən 27-dək (martın 27-də iş günü olacaq) istirahət edə biləcəklər.**

Ümumilikdə, bayram və istirahət günləri nəzərə alındıqda dövlət müəssisələrində 5 günlük iş həftəsi ilə çalışan işçilər mart ayı ərzində 14 gün, 6 günlük iş həftəsi ilə çalışanlar 10 gün istirahət edə biləcəklər.

Qeyd edək ki, 2017-ci ildə beşgünlük iş həftəsində 241 iş günü (onlardan 5-i bayramqabağı, 1-i Ümumxalq hüzn günü qabağı iş günləridir), iş günü hesab edilməyən 110 istirahət günü (onlardan 4-ü iş günü hesab edilməyən bayram günləri ilə üst-üstə düşən, 1-i isə Ramazan bayramının bir gününün iş günü hesab olunmayan başqa bayram günü ilə üst-üstə düşən), iş günü hesab edilməyən 17 bayram (4-ü istirahət günləri ilə üst-üstə düşən) və 1 Ümumxalq hüzn günü var.

Azərbaycan Respublikasının 30 dekabr 2005-ci il tarixli "Əmək Məcəlləsində əlavə və dəyişikliklərin edilməsi haqqında" Qanununa əsasən, bayram günləri həftə sonuna düşdükdə, bu bayramlar növbəti iş günlərinə keçirilir (oxu.az).

**ÖZƏL TİBBİ SAHƏDƏ 20 İLLİK TƏCRÜBƏ!**
**Xəstəlikdən əzab çəkən insanlara Əsasən Kişilərə!**
**Diqqət!!! Axırıncı Şans!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, doktor VAİZ SƏMƏDOV şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi müayinə və müalicə edə bilər.

- Diaqnozu bilinməyən ağır hallar;
- Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər;
- Cinsi zəiflikdən impotensiyadək, marağın və aktların azalması;
- Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)
- Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)
- Sidikdə və spermada qan;
- Spermanın azalması, itməsi;
- Kişi cinsi orqanın birdən əyilməsi, balacalması;
- Oğlan uşaqlarda cinsi orqanların (penisin və xəyaların) yaşa görə balaca olması;
- Ailədə olan hormonal və infeksion səbəbli sonsuzluq;
- Tala-tala və hərtərəfli saçların tökülməsi;
- Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları;
- Baş-boyunda, onurğa-qılçaqlarda, qollar-ayaqlarda, qasıq-xayalarda ağrılar;
- Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.
- Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar

D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, (050) 213-88-05 nömrəsinə, d-r Vaiz Səmədova zəng etmək olar*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.

## Cəlilabadda yanacaqdaşıyan maşın qəzaya uğradı: yaralılar var

**Cəlilabadda 4 nəfərin yaralanması ilə nəticələnən yol qəzası baş verib. "Report" bildirir ki, hadisə Ələt-Astara magistralının Cəlilabad rayonundan keçən hissəsində qeydə alınıb.**

Belə ki, Cəlilabad rayon Maşlıq kənd sakini Nazim Qasımov idarə etdiyi "VAZ-2107" markalı avtomobillə Astara istiqamətində hərəkət edərkən qarşı tərəfdən gələn yanacaqdaşıyan qoşqulu yük avtomobili ilə toqquşub.

Nəticədə sürücü də daxil olmaqla, minik maşınında olan sərnişinlər - Ceyhun Nəsirov, Könül və İradə Nəsirovalar müxtəlif dərəcəli bədən xəsarətləri ilə Cəlilabad Rayon Mərkəzi Xəstəxanasına çatdırılıblar. Xəstələrin vəziyyəti orta-ağır kimi qiymətləndirilir.

Qəzanın hansı səbəbdən baş verməsi araşdırmalardan sonra məlum olacaq.

## Bakıda tək yaşayan qadın qətlə yetirildi

**Bakıda qətl törədilib. Lent.az xəbər verir ki, Hövsan qəsəbəsində yaşayan 53 yaşlı Morozova Anjelika Vasilyevna yaşadığı ünvanda naməlum şəxs və ya şəxslər tərəfindən qətlə yetirilib. İlkin araşdırma zamanı onun boğularaq öldürüldüyü üzə çıxıb.**

Bildirilir ki, A.Morozova mənzilində tək yaşayırmış. Onun öldürülməsi hadisədən 3 gün sonra məlum olub.

53 yaşlı Anjelika Morozovanın qatilləri axtarılır. Lent.az xəbər verir ki, hadisəni törədən şəxs və ya şəxslər daha sonra mənzilin qapısını bağlayaraq qaçıblar. A.Morozovaya zəng edən yaxınları onun cavab vermədiyini görüncə polisə müraciət ediblər və qadının qətlə yetirildiyi üzə çıxıb.

Faktla bağlı Bakı Şəhər Prokurorluğunda araşdırma aparılır.

## Sumqayıtda "BMW" aşıb, ölən və xəsarət alan var

**Sumqayıtda ölümlə nəticələnən yol qəzası baş verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən xəbərə görə, fevralın 27-də saat 01.00 radələrində Sumqayıt şəhərinin H.Z.Tağıyev qəsəbəsində qəsəbə sakini Emil Rzayev idarə etdiyi BMW markalı avtomobili aşırıb. Nəticədə sürücü hadisə yerində ölüb, 1 sərnişini xəstəxanaya yerləşdirilib.**

Faktla bağlı araşdırma aparılır.

## Qoğal satan kişi dispetçerin qulağını kəsdi

**Bakıda qoğal satan şəxs dispetçerin qulağını kəsib, daha bir nəfəri isə bıçaqlayıb. "Report"un xəbərinə görə, hadisə Nizami rayonunda qeydə alınıb. Belə ki, Rüstəm Rüstəmov küçəsində "makler bazarı" kimi tanınan ərazidə qoğal satmaqla məşğul olan orta yaşlı kişi (şəxsiyyəti müəyyənləşdirilir) 1984-cü il təvəllüdlü Məmmədov Elçin Süleyman oğlunun qulağını kəsib. Daha sonra o, əlindəki bıçaqla mübahisənin qarşısını almaq istəyən 1982-ci il təvəllüdlü Elyazov Xanlar Aydın oğlunun üz və bədən nahiyəsinə bıçaq xəsarətləri yetirib. Yaralılar xəstəxanaya yerləşdirilib.**

Qeyd edək ki, E.Məmmədov avtobus dayanacağında dispetçer kimi fəaliyyət göstərir.

Faktla bağlı Nizami Rayon Polis İdarəsində araşdırma aparılır.

## TƏBRİK



***Bu gün ömürlük OMON-çu məhbus Arif Kazımovun ad günüdür. Bu münasibətlə onu anası Tükəzban xanım, qardaşı Maksim, bacıları, yaxın dostu Səfa və bütün onu sevənlər təbrik edir, tezliklə azadlığa qovuşmasını arzulayırlar.***




## "Bakcell"in təşkil etdiyi mini-futbol çempionatının qalibləri Mançesterə səfər ediblər

**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi "Bakcell" şirkətinin "Bakutel 2016" sərgisi çərçivəsində təşkil etdiyi mini-futbol çempionatının qalibləri- Nicat Qapançızadə, İsmayıl İsmayılzadə və Anar Məmmədov 10-13 fevral 2017-ci il tarixləri arasında Mançesterə səfər ediblər.**

**Səfər zamanı klub rəsmiləri tərəfindən qonaqlar üçün Mançester Yunayted-Vatford oyununu izləmək, Old Trafford stadionuna turda iştirak etmək və klubun muzeyini ziyarət edərək onun tarixi ilə tanış olmaq imkanı yaradılıb.**

**Qaliblər səfərlə bağlı fikirlərini belə ifadə ediblər:**

**İsmayıl İsmayılzadə: "Səfərim çox fərqli və maraqlı keçdi. Yeni bir təcrübə oldu mənim üçün. Səfər ərzində yeni yerlər, yeni insanlarla tanış oldum və maraqlı xatirələrlə geri qayıtdım. Old Trafford stadionu isə həqiqətən möhtəşəmdir. Onun xəyallar teatrı olmasının canlı şahidi oldum və bu hissləri bir daha yaşamaq istərdim. Bu fürsəti mənim üçün yaratdığına görə Bakcell şirkətinə təşəkkürümü bildirirəm".**

**Nicat Qapançızadə:"Mançesterə səfər zamanı yaşadığım unudulmaz hissləri sözlə ifadə etməyə çətinlik çəkirəm. Həqiqətən çox maraqlı və fərqli keçdi. "Bakcell"ə xüsusi təşəkkürümü bildirirəm".**

**Anar Məmmədov: "Yadda qalan və əsrarəngiz bir səyahət oldu. Çox maraqlı keçdi. Bu səfərin təşkilində əməyi olan bütün əməkdaşlara təşəkkür edirəm. Çox sağ ol, Bakcell!"**

**Qeyd edək ki, Azərbaycanın futbol üzrə milli komandasının sponsoru və "Mançester Yunayted" futbol klubunun MDB məkanında ilk telekommunikasiya və yayım partnyoru olan Bakcell şirkəti Azərbaycan Futbol Federasiyaları Assosiasiyası ilə tərəfdaşlıq çərçivəsində ölkədə futbolun inkişafı, təbliği və kütləviliyi məqsədilə icra edilən müxtəlif layihələri dəstəkləyir.**

## Bakıda qadını şantaj edən şəxs tutuldu



**Bakıda qadını şantaj edən şəxs tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Bakı şəhər sakini Ellada Zərbəliyevanı (ad şərtidir) barəsində rüsvayedici məlumatlar yayacağı ilə hədələyib ondan 500 manat pul almaqda şübhəli bilinən paytaxt sakini Elnur Əbilov Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb.**

## Göyçay sakini kəsdiyi ağacın altında qalaraq öldü

**Göyçay rayon sakini bədbəxt hadisə nəticəsində dünyasını dəyişib. APA-nın yerli bürosunun xəbərinə görə, hadisə rayonun Xəlitli kəndində qeydə alınıb. Kənd sakini, 1984-cü il təvəllüdlü Xəlilov Rəşad Elşad oğlu pomidor istixanası qurmaq məqsədilə öz həyətindəki qovaq ağacını kəsən zaman ehtiyatsızlıq edib və əsən güclü külək ağacı onun üzərinə aşırıb. Ağır bədən xəsarətləri alan Rəşad Xəlilov təcili olaraq Göyçay Mərkəzi Rayon Xəstəxanasına aparılarkən yolda vəfat edib.**

# Qanunsuz ov nə deməkdir - ekspert izah edir...

## Hikmət Əlizadə: “Əgər ovçu quşun balalarını, yumurtalarını götürürsə, bu da qanunsuz ov hesab edilir”

**Tez-tez mətbuatda qanunsuz ov etdiyinə görə saxlanılan şəxslər olması barədə məlumatlar verilir. Belə xəbərlərdən biri də bugünlərdə yayılıb. “Sabirabad rayonunda qanunsuz ovla məşğul olan şəxs saxlanılıb. Aran bürosu xəbər verir ki, Qasımbəyli kənd sakini Yusif Əhmədov rayon polis şöbəsinin əməkdaşları tərəfindən ərazidə aparılan reyd zamanı tutulub.**

Onun qanunsuz olaraq ovladığı 21 baş qaşqaldaq və 1 ədəd ov tüfəngi götürülüb. Faktla bağlı Sabirabad Rayon Polis Şöbəsində araşdırma aparılır" - deyə xəbərdə bildirilir.

Maraqlıdır, qanunsuz ov anlayışına nə aiddir? Balaca quşlarmı, heyvanlarmı, yoxsa onların yumurtasını məhv etməkmi?

**Müxtəlifliyin Qorunması və Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin İnkişafı Departamentinin direktor müavini Hikmət Əlizadə qanuni ov nədirsə, qanunsuz ovun da onun tam əksi olduğunu dedi:** “Qanunsuz ov dedikdə, dövlət tərəfindən müəyyən olunmuş prosedurlara əməl etmədən həyata keçirilən ov başa düşülür. Qanunvericilikdə müəyyən olunub ki, ilk növbədə vətəndaşın yivsiz odlu silahı olmalıdır. Odlu silah isə Daxili İşlər Nazirliyində qeydiyyatdan keçirilməlidir. Daha sonra həmin şəxs imtahan verib ovçuluq bileti almalıdır. Sonra Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən müəyyən edilmiş vaxtda, müəyyən olmuş yerdə və müəyyən olunmuş növlərə, nəsli kəsilmək üzrə olan növlər, adı qırmızı kitaba düşən, qadağan olunmuş növlər istisna olmaqla, ov icazəsi və dövlət rüsumu ödəyərək ov edə bilər. Bundan kənara çıxan istənilən hərəkət qanunsuz ovdur. Qanuni ovu həyata keçirməyən fəaliyyət, qanuna riayət etməyən şəxs qanunsuz ovçu sayılır”.

**H.Əlizadə quşun balalarını və yumurtalarını götürməyin də qanunsuz ov olduğunu dedi:** “Əgər ovçu quşun balalarını, yumurtalarını götürürsə, bu da qanunsuz ov hesab edilir. Vətəndaş əgər icazə almadan ova gedibsə, bu da qanunsuz ovdur. Hər hansısa şəxs ov sahəsinə riayət etməyib gedib şəhərin ətrafında, içində, kəndin içində ov edirsə, bu da qanunsuz hesab edilir. Qanunsuz ova daha nələrin daxil olduğunu sadalamaq olar. Qısaca olaraq onu demək olar ki, qanuni ov anlayışına zidd istənilən hərəkət qanunsuz ovdur. Yəni vətəndaş qanuni ova riayət etmir, prosedura əməl etmir və tüfəngini götürüb əraziyə çıxır. O, yumurta da yığa bilər, heyvan da vura bilər. Bu şəxs artıq qanunsuz ovçu sayılır”.



Qeyd edək ki, ümumiyyətlə, mövcud normativlərə əsasən yerli ovçulara 1 ov günü müddətinə 6-dək, xarici vətəndaşlara 5 ov günü müddətinə 10-dək su-bataqlıq quşunun, dovşanın isə yerli ovçulara 1 baş, xarici ovçulara 2 baş ovuna icazə verilir.

Hazırda ölkədə ən geniş yayılmış qanunsuz ovçuluq balıqçılıq sahəsindədir. Belə ki, hər il kürü mövsümündə və ilin bütün fəsillərində brakonyerlər cinayət xarakterli əməllərlə - suya elektrik cərəyanı buraxmaqla, zəhərli maddələr tökməklə balıqların kökünü kəsirlər.

❑ **Günel MANAFLI**

# Bu gün Od çərşənbəsidir

## Şər qarışanda hər həyətdə-məhəllədə tonqallar yandırılır

**Bu gün “Boz ayda” qeyd edilən 4 çərşənbədən ikincisi, xalq arasında Üskü çərşənbə, Adlı çərşənbə kimi tanınan Od çərşənbəsi qeyd edilir. Od çərşənbəsi qədim insanların Günəşə, oda olan inamından qaynaqlanıb. Hər çərşənbədə tonqal qalanıb üzərindən tullanmaq ənənəsi olsa da, bu daha çox Od çərşənbəsinə xas bir ənənədir. Bu çərşənbədə azərbaycanlılar “Ağırlığım, uğurluğum odda qalsın” deyərək tonqalın üzərindən tullanırlar. Adət-ənənəyə görə, bu gün tonqal qalayıb, alovun üzərindən tullanmaqla daxildə olan bütün çirkabı və azar-bezarları yandırırlar.**




Od çərşənbəsini vaxtilə bu ərazidə geniş yayılmış atəşpərəstliklə bağlayanlar da az deyil. Qədim zamanlardan bəri od Türkün ağlında, düşüncəsində müqəddəslik rəmzi olub. Od çərşənbəsinin mahiyyətində odun qədimdən müqəddəs sayılması, insanı hər cür pisliklərdən, şərdən təmizləyəcəyinə, xeyrin qələbə çalacağına inam ifadə olunur. Novruz bayramı ərəfəsində keçirilən Od çərşənbəsi insanın yaradılış prosesinin ikinci mərhələsinin - od komponenti ilə bağlı mərhələnin mifik təzahürüdür. Qədim türk mifologiyasında odla bağlı müxtəlif motivlər mövcud olub. İnanclara görə, odu Günəşlə, işıqla bağlayırlar. Od çərşənbəsində Oda sitayiş edilir, onun şərəfinə şənliklər təşkil olunur. Günəşin istisini arzulayan babalarımız böyük tonqal qalayıb Günəşin çıxmasını gözləyər, odun şərəfinə nəğmələr söyləyərdilər. Hazırda da şər qarışanda hər həyətdə, məhəllədə tonqallar yandırılır və tonqal başına toplananların hamısı növbə ilə 3 dəfə alovun üstündən tullanırlar. Kənd yerlərində isə bütün kəndi od çərşənbəsinin olması ilə bağlı agah etmək üçün həmişə dağların başında tonqallar qalanarmış. Əgər dağlar olmasa hündür yerlər seçərək o hissələrdə tonqalın qalanması daha məsləhətli hesab olunurdu. İnsanlar isə öz qapılarında, evlərinin qarşısında və məhəllələrində tonqal qalamaq üçün əllərinə taxtadan məşəllər götürür, həmin böyük tonqalın yanına gedərək oradan alov götürürdülər. Sonra həmin alovu öz tonqal qalayacaqları yerə gətirib, alovu yandırırdılar. Od çərşənbəsi günündə qazanlar qaynamalı, insanların ocağının üstü boş qalmamalıdır. Həmin gün hamı müxtəlif xörəklər bişirilməli və stolun üzərində bütün çərşənbələrdə olduğu kimi şirniyyatlar olmalıdır. Bu, süfrənizin bollu, bərəkətli olması, ilinizin şirin və sevinc dolu keçməsinə səbəb olur.

Odla bağlı xeyli atalar sözləri də mövcuddur: “Od imandır”, “Od düşdüyü yeri yandırar” və s. İnanclara görə, ocağa yaxınlaşanda salam verərlər, od hisli olarsa, uzaqdan qonaq gələcəyinə işarədir. Əgər ocaq yananda səslənirsə, deməli, kimsə səndən danışır. Od çərşənbəsi günü, gün doğanda dünyaya gələn uşaq göyçək, pəhləvan olar. Oda sevgi, inam insanlarda o qədər güclü olub ki, hələ qədim dövrlərdən ona and içiblər. Alqış və qarğışlarda belə, odu köməyə çağırıblar. Məsələn, “Od haqqı”, “Oda düşəsən”, “Ocağın odlu olsun”, “Ocağın qazan görməsin” və s.

Qeyd edək ki, Azərbaycanda axır çərşənbə martın 14-nə təsadüf edir. Bu il Azərbaycana yaz fəsli martın 20-də, səhər saatlarında 10:28:07-də daxil olacaq. Bu vaxt Günəş 23 dərəcə və 27 dəqiqə deyilən bir nöqtəyə gələcək. Həmin an Günəş Yerin hərəkət müstəvisi ilə Yerin ekvator müstəvisinin kəsişdiyi nöqtədə olacaq. Bu nöqtəyə astronomiyada “yaz bərabərliyi nöqtəsi” deyilir. Günəş həmin nöqtədə olanda, gecə və gündüz bərabərliyi qeydə alınacaq. Həmin andan başlayaraq, şimal yarımkürəsində astronomik bahar başlayır və bu, iyunun 21-dək davam edir.

**Od çərşənbəniz mübarək! Süfrəniz bol ruzi- bərəkətli olsun!**

❑ **Günel MANAFLI**



# Mikayıl Müşfiqin abidəsi niyə götürülüb?

## “Azəravtoyol” rəsmisi abidənin dağıdılması iddialarına cavab verdi: “Büst təmir işləri ilə əlaqədar müvəqqəti götürülüb”

**Sosial şəbəkələrdə Azərbaycanın məşhur şairi Mikayıl Müşfiqin abidəsinin dağıdılması ilə bağlı məlumatlar, fotolar yayılıb. Şairin abidəsinin dağıdılması ictimaiyyətdə geniş müzakirələrə səbəb olub. Məlumatlarda bildirilib ki, abidənin dağıdılmasına səbəb “Azəravtoyol” ASC-nin ərazidə quruculuq işləri aparması olub. Məsələyə Rəssamlıq İttifaqından da münasibət bildirilib. Qurumun heykəltəraşlıq bölməsinin rəhbəri, xalq rəssamı, görkəmli heykəltaraş Xanlar Əhmədov virtualaz.org saytına açıqlamasında abidənin dağıdılmasını vandalizm adlandırıb:**

“Nə Rəssamlar İttifaqı, nə Mədəniyyət Nazirliyi ilə məsləhətləşmədən, razılaşdırmadan heykəli dağıdıblar. Vandalizm əməlini biz başqa yerlərdə axtarırıq, amma bu törədilən əməl əsl vandalizmdir və vandalizm axtarmaq üçün başqa yerə getmək lazım deyil. Həmin heykəl bizim nüfuzlu qadın heykəltəraşımız, mərhum Münəvvər Rzayevanın ən layiqli əsərlərindən biri idi, kifayət qədər yaxşı vəziyyətdə qalmışdı və heç bir bərpaya-filana ehtiyacı yox idi”.

Musavat.com bildirir ki, “Azəravtoyol” ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfov rəsmi açıqlama verərək mətbuatda və sosial mediada abidənin dağıdılması ilə bağlı yayılan xəbərlərin əsassız və həqiqəti əks etdirmədiyini bildirib:

“Azərbaycan Respublikası Prezidentinin sərəncamlarına uyğun olaraq Füzuli meydanı ətrafında və ”Təzəpir" məscidi istiqamətində geniş yenidənqurma və abadlıq işləri aparılır. Bu işlər çərçivəsində “Statistika dairəsi”ndə dəyişikliklər nəzərdə tutulub. Bu dəyişikliklər çərçivəsində ərazidə yerləşən və tanınmış heykəltəraş, Azərbaycan Respublikasının əməkdar rəssamı Münəvvər Rzayeva tərəfindən 1968-ci ildə yaradılan görkəmli şairimiz Mikayıl Müşfiqin büstü müvəqqəti olaraq yerləşdiyi ərazidən götürülüb. Yəni mətbuatda və sosial mediada abidənin dağıdılması kimi xəbərlərin tirajlanması əsassızdır və həqiqəti əks etdirmir.

“Azəravtoyol” ASC-nin apardığı yenidənqurma işləri zamanı Mikayıl Müşfiqin büstü uyğun texnologiya əsasında əsərin görünüşündə heç bir dəyişiklik edilmədən ərazidən tam və sağlam şəkildə götürülüb. Hazırda büst və büstün qoyulduğu xüsusi hissənin üzlənməsində istifadə olunan qranit-mərmər də parça və xüsusi materialla örtülmüş şəkildə cəmiyyətin anbarında saxlanılır". Qurum rəsmisi qeyd edib ki, quruculuq-abadlıq işləri tam başa çatdıqdan sonra büstün hazırda yerləşdiyi ərazinin 5-6 metr sağ hissəsində 5 dəfə böyük yaşıllıq parkı salınacaq, büst də əvvəlki şəkildə həmin əraziyə qoyulacaq.

Xatırladaq ki, şair Mikayıl Müşfiqin abidəsi Nəriman Nərimanov və İnşaatçılar prospektlərinin kəsişməsində yerləşən parkın ərazisində idi.

❑ **Xalidə GƏRAY**

# YENİ MÜSAVAT

Son səhifə

N 45 (6659) 28 fevral 2017




## Çaxır içənlər arıq qalır

**Amerika alimləri belə bir qənaətə gəliblər ki, çaxır qadınları artıq çəkidən qoruyur. Sən demə, çaxırda çox sayda kalori olmasına baxmayaraq, ondan ağılla içmək qadın fiqurasını gözəlləşdirir. Alimlər son 13 il ərzində çaxırın qadın metabolizminə təsirini öyrənməyə çalışıblar.**

Araşdırmalarda 19.220 amerikalı qadın iştirak edib. Çaxırdan ağılla istifadə edən qadınların çəkisi mineral su və hətta suya üstünlük verənlərdən fərqli olaraq gec artır. Alimlər hesab edir ki, alkoqolun tərkibində olan kalori digər maddələrdə olan kalorilərdən fərqli olaraq çəkiyə az təsir edir. Lakin bunun səbəbi hələlik aydınlaşdırılmayıb.

Belə bir ehtimal var: müntəzəm olaraq alkoqoldan istifadə edən insanın qaraciyəri maddələr mübadiləsi üçün əlavə fəallıq göstərir, artıq enerjini yağa yox, istiliyə çevirir.

13 il davam etmiş eksperiment gedişində araşdırmalarda iştirak etmiş qadınların 38 faizi içkiyə olan münasibətləri barədə danışıblar və öz çəkilərini qeyd ediblər. Eksperiment gedişində məlum olub ki, alkoqoldan qaçan qadınların çoxunun çəkisi artıb. Qadın fiqurasına daha yaxşı təsir edən isə qırmızı çaxır olub. Pivə və daha sərt içkilər isə çəkinin maksimum artmasına gətirib çıxarıb.

Lakin alimlər hesab edir ki, çaxırdan istifadə edərkən ölçünü gözləmək lazımdır. İfrat dərəcədə aludəçilik təkcə çəkiyə deyil, həm də sağlamlığa ziyandır.

# 1 ildə 3 uşağı oldu

**27 yaşlı qadın ilk körpəsini doğduqdan 6 həftə sonra ikinci dəfə hamilə qalıb.**

Milli.az "The Sun"a istinadən xəbər verir ki, Eliza Benlə münasibətlərinin 3-cü ayında hamilə qalıb.

Çarli dünyaya gəlib. Yuxusuz gecələr, ana olmağa alışmaq prosesi davam edərkən 6-cı həftənin sonunda 27 yaşlı qadın yenə hamilə olduğundan şübhələnib.

İlk etdiyi test mənfi çıxıb, ancaq 2 həftə içində etdiyi 4 testdən sonra hamilə olduğu dəqiqləşib. Böyük bir şok yaşayan cütlük əsl sürprizi xəstəxanada öyrənib - cütlüyün əkizləri olacaqdı.



İndi biri 1 yaş, digərləri 8 həftəlik körpələri üçün gündə 20, həftədə 140 bez dəyişdirdiklərini deyirlər.

# Əgər kişi çox xəstələnirsə, aqressivdir

**Alimlər iddia edirlər ki, əsəbi, yorğun və aqressiv kişilər ürək-damar xəstəliklərinə daha çox tutula bilərlər. Güclü emosional-psixi gərginlik müxtəlif xəstəliklərin yaranmasına səbəb ola bilir.**

10 il ətraf mühitə nifrət və depressiya kişilərdə immun sistemə ziyan vurur ki, bu da onlarda ürək xəstəliklərinə səbəb olur. Dyuk adına ABŞ Universitetinin alimləri aşkarlayıblar ki, mənfi emosiyalar ikinci qrup şəkər xəstəliyinin yaranmasına səbəb ola bilər. Hirsli, əsəbi və aqressiv kişilərdə C3 zülalının miqdarı artır ki, bu da xroniki immun sisteminin zəifliyinə gətirib çıxarda bilir.

Tibb işçiləri Vyetnam müharibəsində iştirak etmiş 313 veteranın 10 illik sağlamlığını müşahidə ediblər. Qan nümunələrinə baxılmış, psixoloji testlər aparılıb, C3 və C4 zülalların miqdarı müşahidə olunmuşdur. Daha çox nifrət və depressiya hissləri keçirən kişilərdə C3 zülalı 7,1% artırmış. Bu artım öz növbəsində kişilərdə ürək sağlamlığına mənfi təsir göstərib.





## Qısa günlərdə qadınlar əsəbi olur

**İndiana Universitetinin mütəxəssisləri maraqlı araşdırma edib. Araşdırma göstərib ki, qışda qadınlar daha aqressiv olurlar. Buna səbəb isə günlərin qısalması göstərilir.**

Xamyaklar üzərində aparılan araşdırma göstərib ki, qadınların hormonal mexanizmi onların aqressivliyini şərtləndirən əsas amildir. Kişi orqanizmində isə aqressiya başqa mexanizmlə idarə olunur.

Bioloq Nikki Rendonun fikrincə, bu araşdırma gələcək tədqiqatlar üçün baza rolunu oynayacaq. Belə ki, qadın orqanizmində sutkanın qaranlıq zamanında melatonin artır, sutkanın işıqlı zamanlarında isə azalır. Bu isə qadınların davranışını şərtləndirir.

"Cinsi hormonlar qadın və kişilərdə aqressiya üzərində nəzarətin təmin edilməsində mühüm rol oynayır",- deyə bioloq vurğulayıb.

## Qoroskop




**QOÇ** - Ay bürcünüzdə olduğu üçün fiziki işləri azaltmalı, əsas diqqəti istirahətə yönəltməlisiniz. Yaxşı olar ki, saat 14-17 arası ziyarətə gedəsiniz. Pul sövdələşmələrini isə təxirə salın.

**BUĞA** - Böyük yeniliklər astanasındasınız. Bu səbəbdən də hazırkı sıxıntılarınıza görə narahat olmayın. Səbrli və ümidli olun ki, yaxınlaşmaqda olan sürprizlər sizdən yan keçməsin.

**ƏKİZLƏR** - Götür-qoy etmək limitiniz başa çatdığı üçün konkret işə keçin. Artıq bu ərəfədə hansı perspektivlərə yiyələnəcəyinizi təyin etməlisiniz. Müttəfiqlərinizi dəqiqləşdirin.

**XƏRÇƏNG** - Uzaq səfərə çıxmağa dəyər. Çünki Göy qübbəsi deyilən istiqamətdə baxtinizi parlada bilər. Kosmik məkanın astroloji mənzərəsi yaxınlarınıza laqeyd qalmamağı tövsiyə edir.

**ŞİR** - Əsas enerjinizi əməkdaşlıq istiqamətinə yönəldin. Elə taktika seçin ki, ətrafda ikrah oyatmasın. Sevgilinizlə romantik bir gəzintiyə çıxmaq, münasibətləri aydınlaşdırmaq üçün də düşərlidir.

**QIZ** - İstər sağlıq durumunuzda, istərsə də əməli fəaliyyətinizdə mövcud olan xoşagəlməzliklər artıq arxada qalacaq. Ona görə də qarşınızda duran öhdəliklərə layiqincə əməl edin.

**TƏRƏZİ** - Bəri başdan yadda saxlayın ki, bu təqvimdə çoxsaylı və maraqlı hadisələrlə baş-başa qalacaqsınız. İstər ailə-sevgi münasibətlərində, istərsə də fəaliyyətdə hər şey ürəyinizcə olacaq.

**ƏQRƏB** - Həftənin ən ideal təqvimini yaşayacaqsınız. Ən böyük uğurlarınız isə məhəbbət aləmində baş verəcək. Əgər aktivlik göstərsəniz, nahardan sonra varlana da bilərsiniz. Uzaq yola çıxmayın.

**OXATAN** - Səhhətinizlə bağlı xırda narahatçılığınızı nəzərə almasaq, günün ümumi mənzərəsi xeyrinizə olacaq. Əlalxüsus da nahardan sonra cərəyan edən olaylara görə bu təqvimdən razı qalacaqsınız.

**OĞLAQ** - Çoxsaylı görüşlərdə iştirak edəcəyinizdən xəbər verən ulduzlar hansısa xoşagəlməzliklə rastlaşma ehtimalınızı təkzib edir. Əksinə, ətrafınızda olanların hər biri ovqatınızı yüksəldəcək.

**SUTÖKƏN** - Hiss olunur ki, darıxdırıcı məqamlar yaşamaqdasınız. Bəzən də düşünürsünüz ki, zülmətə bürünmüş dünyamızın təklənmiş sakinisiniz. Baxışlarınızı dəyişin. Çünki yanlış fikirləşirsiniz.

**BALIQLAR** - Maliyyə problemləriniz artsa da, nəzərdə tutduğunuz işlərin öhdəsindən gələcəksiniz. "Hakim" bürc olduğunuzdan enerjiniz artacaq, günortadan sonra maraqlı insanlarla görüşəcəksiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Evli kişilərin daha çox yaşamasının səbəbi bəlli oldu



**Araşdırmalara əsasən evli kişilər subay kişilərlə müqayisədə daha çox yaşayırlar. Britaniyalı alimlər bunun bir neçə səbəbini müəyyən ediblər. Adətən kişilər öz səhhətlərinə qarşı etinasızdılar. Qadınlar isə əksinə, öz orqanizmlərinə qarşı daha diqqətlidirlər. Bu səbəbdən də məhz qadınlar öz həyat yoldaşlarının səhhətində bir problem gördükdə onları həkimin qəbuluna yazılmağa məcbur edirlər.**

Bundan əlavə, qadınlar həyat yoldaşlarını vaxtı-vaxtında dərman içməyə və həkimlərin göstərişlərinə əməl etməyə də məcbur edirlər.

İnfarkt və ya insult olmuş ailəli kişilər xəstəxanaya daha tez çatdırılırlar. Bu da onların həyat yoldaşlarının operativliyinə görə baş verir.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100